**UOT 94.(479.24).**
**KBT (2) (5 Aze)**

**Taleh HACIYEV*** 
*(Azərbaycan)*

*Bakı Slavyan Universiteti*

# SOVET AZƏRBAYCANINDA DİNƏ QARŞI APARILAN SİYASƏTİN XÜSUSİYYƏTLƏRİ (1920-1940)

**Məqaləyə istinad:** Hacıyev, T., [2021] *Sovet Azərbaycanında dinə qarşı aparılan siyasətin xüsusiyyətləri (1920-1940)*. “Metafizika” jurnalı. № 3 (15), səh. 39-86

**Annotasiya**

SSRİ-nin parçalanmasından sonra müstəqillik əldə edən Azərbaycan Respublikasında son 70 illik dövrün ictimai-siyasi hadisələrinə obyektiv qiymət verilməyə, bu hadisələrə tamamilə yeni nəzər nöqtəsindən baxılmağa başlanmışdır. Sovet hakimiyyəti illərində xalqın milli və dini dəyərlərinə vurulmuş zərəri araşdırmaq, bunları ictimaiyyətin geniş müzakirəsinə çıxarmaq proseslərə elmi qiymət vermək tədqiqatçıların əsas vəzifələrindən biridir. Ümumilikdə üzərində tədqiqat aparılan mövzu həm elmi, həm də praktik baxımdan xüsusi əhəmiyyətə malikdir.

Cəmiyyətin dini həyatını və ya cəmiyyətin ictimai həyatında dinin rolunu öyrənən digər sinkretik sahələrdən fərqli olaraq bu məqalədə daha sovet dövründə bolşeviklərin və ateistlərin hansı parametrləri din atributları bilib və onlara qarşı mübarizə aparmaları haqqında tarixi sənədlərə və faktlara əsaslanmış və təhlil edilmişdir. Burada ilk olaraq sovet hakimiyyətinin ilk illərindən başlayaraq bolşeviklərin Azərbaycanda dini bayram və mərasimlərə qarşı mübarizə formaları və

* Bakı Slavyan Universitetinin “Azərbaycan Tarixi və İctimai Elmlər” kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru
e-mail: taleh.82@mail.ru
https://orcid.org/0000-0001-6196-8953

**Məqalənin tarixçəsi:**
Məqalə redaksiyaya daxil olmuşdur: 07.02.2021
Təkrar işlənməyə göndərilmişdir: 17.03.2021
Çapa qəbul edilmişdir: 03.09.2021

dinə qarşı apardığı siyasətin xüsusiyyətləri təsvir olunmuş və faktlarala izah edilmişdir. Həmçinin bu məqalədə o zamanın dini göstərici və parametrlərini öyrənməklə yanaşı onlara qarşı mübarizə üsülları və metodlarını da göstərilmişdir.

**Açar sözlər:** Sovet Azərbaycanı, Sovet hakimiyyəti, dini bayram və marasimlər, mübarizə formaları, Məhərrəmlik, Ramazan ayı, Qurban bayramı, məscidlər, dini təhsil ocaqları, ilahiyyatçılar

## Giriş

Respublikamız öz müstəqilliyini əldə etdikdən sonra milli-mənəvi dəyərlərimizə, soykökümüzə, adət-ənənələrimizə bağlılıq, onlara diqqət və qayğı siyasi xarakter almış, müstəqil dövlətimizin apardığı siyasi kursun nəticəsində aktuallaşmışdır. Xalqımız üçün, müstəqilliyimizin qorunub saxlanılması üçün tarixi əhəmiyyətə malik olan dövlət quruculuğu illərində qəbul olunmuş yeni konstitusiyamız vətəndaşların sosial, iqtisadi, siyasi, mədəni və nəhayət mənəvi sferada geniş azadlıqlara, hüquqlara malik olması istiqamətində, sivil cəmiyyətlərə inteqrasiya etməsi yönümündə normativ və çox əhəmiyyətli baza formalaşdırmışdır.

Bütün bu mütərəqqi islahatların və görülən məqsədə müvafiq işlərin fonunda cəmiyyətimizdə çox müxtəlif sahələr üzrə müstəqil düşünmə sərbəst yanaşma aktivləşmişdir. Belə bir şəraitdə, mühitdə xalq öz soykökünə, əsrlərdən bəri qoruyub saxladığı hətta, ən müxtəlif ideoloji təzyiqlərin tüğyan etdiyi, mövcud olduğu zamanlarda belə mühafizə edərək nəsillərdən nəsillərə ötürdüyü adət-ənənələrinə, xalqın tarixindən qaynaqlanan vərdiş və rituallarına, dini dəyərlərinə əsaslanan müstəqil mənəvi düşüncə mühitinə yenidən qayıtmışdır. İstər bu istərsə də digər tarixi dövrlərdə Azərbaycan xalqının ailə-məişət həyatının tənzimlənməsində dini dəyərlərin rolunun danılmaz həqiqəti ifadə etməsi, sosializm kimi dünyanı lərzəyə salan, geniş arealda cəmiyyətləri öz arxasınca aparmağı bacaran mükəmməl ideologiyanın belə, xalqı öz məfkurəsindən ayıra bilməməsi, xalqın mədəni-mənəvi irsinə bağlılığının qorunması kimi tutarlı faktlar mövzunun öyrənilməsinin aktuallığından, onun bu və ya digər səbəblərinin sosioloji baxımdan araşdırılmasının vacibliyindən xəbər verir.

Aktuallığından bəhs olunan mövzu dini dəyərlər, inanclar və rituallarla bağlı olduğundan məsələlər din sosiologiyası aspektindən təhlil olunmuş, bu baxımdan araşdırılmışdır. Sosiologiyanın məhz bu sahəsinin müxtəlif səbəblərdən respublikamızda az tədqiq edilməsi və əksinə müasir şəraitdə bu sahənin öyrənilməsinin zəruriliyi görülən işin əhəmiyyətinin göstəricisi, bariz nümunəsidir.

Din sosiologiyasının mövzusunu qısa şəkildə "Cəmiyyətin müştərək dini həyatının, din və cəmiyyət münasibətləri və bu münasibətlərdən doğan təsirlərin və dini qrupların öyrənilməsi" kimi tərif edə bilərik. Cəmiyyətin dini həyatını və ya cəmiyyətin ictimai həyatında dinin rolunu öyrənən digər sinkretik elmlərdən fərqli olaraq sosiologiya bu məsələlərə daha geniş çərçivədə yanaşır

p-ISSN 2616-6879
e-ISSN 2617-751X

və hər iki kateqoriyanın xüsusiyyətlərinə əsaslanır. Sosiologiya dinin cəmiyyətin şüurunda, bilavasitə gündəlik fəaliyyətində, məişətində təzahür edən və dini təşkilatların cəmiyyətin həyatına təsiri ilə yaranan qarşılıqlı münasibətlərin xarakterini müəyyənləşdirməyə çalışır.

Sovet hakimiyyəti illərində Azərbaycan xalqının ailə-məişət həyatında qorunub saxlanmış dini inancların sosioloji xüsusiyyətlərini tədqiq etmək elmi baxımdan aktuallığı uzun illər sovet dövlətinin ateizm siyasətinin mövcudluğu şəraitində bu sahənin elmi cəhətdən kifayət qədər araşdırılmaması, lazımi qədər dəyərləndirilməməsi ilə bağlıdır.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, üzərində tədqiqat aparılan mövzu həm elmi, həm də praktik baxımdan xüsusi əhəmiyyətə malikdir.

**Sovet hakimiyyətinin ilk illərindən başlayaraq partiya və hökumətin dinə qarşı apardığı siyasətin xüsusiyyətləri**

Fevral inqilabından sonra çar Rusiyası dağıldı, ölkədə qarmaqarışıqlıq, çaxnaşma hökm sürməyə başladı. 1917-ci ildə Rusiyada baş vermiş oktyabr inqilabı nəticəsində hakimiyyəti ələ keçirən bolşeviklər həm Çar Rusiyasındakı, bununla yanaşı həm də xaricdəki müsəlman kütlələrinin etimadını qazanmaq məqsədi ilə fəaliyyətə başladılar. Həmin dövrdə Sovet Rusiyasının daxili və xarici vəziyyətinin çox acınacaqlı olması bolşevik liderlərini müsəlman xalqlarının dini etiqadlarına azadlıq verməyə məcbur etdi. Rusiyada davam edən vətəndaş müharibəsində Qızıl Orduda xidmət edən Tatar və Başqırdların sayı da burada önəmli rol oynayırdı [1, 12]. Bolşeviklərin siyasi və hərbi rəhbərləri son dərəcə ehtiyac duyduqları bu hərbi güclə hesablaşmaya bilməzdilər.

Bir faktı da gözdən qaçırmaq olmaz ki, Oktyabr inqilabının baş verdiyi zaman Rusiyada yaşayan müsəlmanlar 30 milyon nəfər olmaqla xristian provaslavlardan sonra sayca ikinci yerdə gəlir və ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayırdılar. [2, 195] Uzun müddət ərzində inqilabı planlaşdırmış və kütlələrlə son dərəcə aktiv şəkildə işləmiş kommunist bolşeviklər bunu nəzərdən qaçırmamışdılar.

1920-ci il aprelin 28-də Azərbaycanda qurulan Sovet hakimiyyəti, 1917-ci il oktyabr inqilabı ilə Rusiyada hakimiyyəti ələ keçirən bolşevik diktaturasının yetirməsi idi. Tarixdən məlum olduğu kimi, bolşevik Rusiyasının bilavasitə müdaxiləsi nəticəsində Azərbaycan ərazilərində də kommunist dövləti qurulmuşdur. Bu inqilab XIX əsrin əvvəllərindən Çar Rusiyasının müstəmləkəsinə çevrilmiş Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədi, əksinə 1920-ci ilin 28 aprelində Qızıl ordunun köməkliyi ilə Şərqdə ilk demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinə son qoyaraq yenidən müstəmləkə vəziyyətinə saldı.

Bütün Rusiyada olduğu kimi Azərbaycanda da bolşeviklər hakimiyyəti ələ keçirər-keçirməz mövcud sosial, iqtisadi, mədəni və siyasi həyatın bütün sferalarını yenidən qurmaq üçün tarixi dialektik materializmin rəhbərləri Marks, Engels və onların davamçıları olan Lenin və Stalinin şərhlərini mənimsədilər.

Bu hal bütün kommunistlər tərəfindən kommunist partiyasının əsaslarından biri halına gətirildi.

Bu nöqteyi nəzərdən də bolşeviklər yuxarıda qeyd etdiyimiz bəyanatlarının əksinə olaraq Azərbaycanda əsas din forması olan islama, onun dini təşkilatlarına, ruhanilərə və dini ayinləri icra edən vətəndaşlara qarşı mübarizə aparmışlardır. Uzun bir müddət ərzində respublika əhalisinin dini inancları nəzarət altında olmuş, bütün vasitələrdən istifadə edərək insanların dini inanclarını, əqidələrini boğmağa, tədricən dini sıxışdırıb xalqın məişətindən, gündəlik həyat tərzindən çıxarmağa cəhdlər edilmişdir. Sovet İttifaqının son günlərinə qədər bu kompaniya davam etmiş, bu illər ərzində çoxlu sayda qərar, fərman, dekretlərlə dövlətin din əleyhinə mübarizəsi qanuniləşdirilmişdir.

Azərbaycanda 1921-ci ildən etibarən RK(b)P MK-nın [1] sərəncamına əsasən din ilə hər hansı bir şəkildə əlaqəsi olan və dini ayinləri icra edən insanların kommunist partiyasının sıralarına qəbul edilməsi yaxud əlaqəsi olanların partiyadan xaric edilməsi məsələsi qəti şəkildə bildirilərək təmizlənmə işləri başlanıldı [3, 113].

İlkin mərhələdə xarici tədqiqatçılar Sovet rejiminin Azərbaycanda 1924-cü ilə qədər izlədiyi antidini siyasəti bir baxımdan "dini-liberalizm" olaraq qeyd edirlər. Bunun da başlıca səbəbi kimi ruhani sinfinin "parazitlər" adı altında günahlandırılaraq insan haqlarından məhrum edildiyi digər Sovet torpaqlarındakıların əksinə olaraq, Azərbaycanın müsəlman dini adamlarının seçmə və seçilmə haqqına sahib olması ilə əlaqələndirilərək, antidin propaqandasına yalnız 1924-cü ildən sonra azadlıq verildiyini, və dövlətin bütün istiqamətlərdə dinə qarşı mübarizəyə başladığını qeyd etmişdilər [4, 4].

Benniqson "Azərbaycanda İslamiyyətin durumu" adlı məqaləsində Azərbaycanda din xadimlərinin bu haqqa sahib olmalarını Hümmət partiyasının liderləri olan müsəlmanlar, Azərbaycan Kommunist(b) partiyasını ən təsirli qrupunu təşkil edən insanlarla bağlayır. Onlar Şiə camaatını yaxından tanıdıqları üçün onun gücünə hörmət edirdilər, islama qarşı tələsik, vaxtından qabaq bir hücumun yeni rejimin vəziyyətini təhlükəyə sala biləcəyi üçün bundan çox çəkinirdilər. Onu da qeyd etməliyik ki, Azərbaycan kommunist liderlərinin bu taktikası Sovet İttifaqının bolşevik rəhbərlərinin apardıqları islamyönlü siyasətə uyğun gəldiyinə görə, mərkəzdə də dəstəklənir və hətta digər respublikalara nümunə də göstərilirdi [5, 6].

Lakin, bolşeviklər hakimiyyətlərini möhkəmlətdikdən sonra Azərbaycanda din xadimlərinə qarşı bu cür ehtiyatla yanaşmanın olduğunu söyləmək çətin olardı. Belə ki, bolşeviklər partiya daxilində anti dini kompaniyanı əsas vəzifələrindən biri hesab edərək məscidləri əhalinin iradəsi əleyhinə olaraq zorla bağlayaraq kluba və ya anbara çevirmələri, "Allah yoxdur" kimi kobud və düşünülməmiş "şüarlar" irəli sürməsi dindar adamların

[1] Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi

təhqir edilməsi, minarədə azan verən adama güllə atılması kimi hallar əsasında onların bu işdə nə qədər solçuluğa və vulqarlığa yol verdiklərini demək olar. Təsadüfi deyildir ki, kommunistlərin dinə qarşı belə münasibəti Aprel çevrilişindən altı ay sonra açılmış Azərbaycan K(b)P-ın II qurultayında (1920-ci il oktyabr) ciddi tənqid olundu. [6, 635] Qurultayda ASSR-ı[1] Xalq Komissarları Şurasının sədri sonralar MK-nin katiblərindən biri olan N. Nərmanov dinə qarşı özünün münasibətini açıqlamış və bu sahədə yol verilən nöqsanları sadalamışdı. Nərimanov öz çıxışında bildirmişdi ki, "Bizdə elə müsəlman kommunistlər var ki, kəndə girən kimi adamları məsciddən qovur və deyir ki, məscidləri bağlayın. Bu faktdır və belə kommunistlər öz əməlləri ilə fəxr edirlər ki, guya böyük iş görürlər. Onlar elə güman edir ki, bizim inqilabımızı genişləndirir və möhkəmləndirirlər. Mən belələrini əks inqilabçı adlandırıram, çünki bunlar bizim işlərimizi korlayırlar. Şərqdə din məsələsi olduqca vacib məsələdir. Bu məsələdə son dərəcə ehtiyatlı olmaq lazımdır, çünki burada bütün həyat bu qanundan asılıdır". [7, 111].

Həmin qurultayda N.Nərimanov bildirmişdi ki, "Çox yoldaşlar islam ilə xristianlıq arasındakı fərqi bilmirlər. Bunları eyniləşdirmək olmaz. Əgər xristianlıq ehkamdırsa, islam həyatdır. Hər bir müsəlman beşikdən başlamış qəbirə qədər islam qanunları ilə bağlıdır. Hətta qəbirdə də molla ölünün qulağına nəisə pıçıldayır". [8, 200].

İlkin mərhələdə radikal kommunistlər tərəfindən dinə qarşı belə münasibət mərkəzdə də ciddi narahatçılığa səbəb olmuşdur. Belə ki, dinə qarşı mübarizə aparanarkən əhalinin dini hisslərini təhqir edilməsinə yol verməmək üçün 1923-cü ildə RK(b) P-nın XII qurultayında "din"ə qarşı mübarizənin "zor" işlətmək şəklində deyil "təbliğat" yolu ilə aparılması qərarlaşdırılmışdır. Bu qərar münasibətilə aşağıdakı fikir irəli sürülmüşdür: *"Çevriliş və inqilab nəticəsində geniş xalq fəhlə (işçi) kütləsinin dini əqidələrini sarsıtmaqla bərabər, mövcud iqtisadi şərtlər və istehsal üsulları daxilində şəhərlərdə kapitalist formalarının, xüsusi mülki əsasların mövcud olması cəhətləri, dini əqidələri davam etdirməkdədir. Bu səbəblə də kəndlilər və fəhlələr arasında dini əqidələrə qarşı təbliğat vasitəsilə "din"in sadəcə istismarçı zümrələrin aləti və işçi sinfin mənfəətinə zidd olduğu izah edilməlidir." Dinə qarşı uğurlu mübarizənin ancaq maarif sahəsində ciddi şəkildə cəhdlər edilməsi ilə mümkün olacağı, məktəblərdə din əleyhinə olan təhsil verilməsi, müəllimlərin buna görə hazırlanması, kəndlərə sovet kommunist qəzet və kitabların göndərilməsi yolu ilə mümkün olacağı müəyyən edilmişdir."* [9, 15]

1923-cü ilin əvvəllərində Azərbaycan K(b) P MK-nin təşviqat şöbəsinin məlumatında göstərilirdi ki, Sovet Azərbaycanında dinin təsirində qalanlar təkcə fəhlə və kəndli kütlələri deyildir. Azərbaycan ziyalılarının 80 faizə qədəri, azərbaycanlı partiyaçılarının isə 50 faizə qədəri bu və ya başqa bir şəkildə dinin təsiri altında qalır [10, 112].

[1] *Azərbaycan Sovet Sosialist Respublikası*

Bu məqsədlə AK(b)P MK-nin[1] 1923-cü il 24 fevral tarixli plenumu din əleyhinə təbliğatı gücləndirmək haqqında xüsusi qərar çıxardı [11, 120]. Həmin ilin 5 sentyabrında Azərbaycan K (b)P MK Katibliyinin qərarı ilə dinə qarşı mübarizə üçün xüsusi komissiya yaradıldı. Komissiyanın tərkibinə Əliheydər Qarayev, Ruhulla Axundov, Sultan Məcid Qəniyev, Çaqin (Bakinski Raboçi qəzetinin redaktoru) və başqaları daxil idi. [12,254]

İslama və din xadimlərinə qarşı hücum total şəkildə, bir çox istiqamətlərdə aparılırdı. Din əleyhinə təbliğata partiya sovet həmkarlar ittifaqlarının orqanları, mətbuat kino işçiləri, ədəbiyyatşünaslar, jurnalistlər, "Mübariz Allahsızlar Cəmiyyəti" kimi ictimai təşkilatlar və cəmiyyətin və dövlətin bir çox digər strukturları cəlb olunmuşdur.

Bu təşkilatların əsas istiqamətləri din xadimlərinin nüfuzdan salınması, məscidlərin bağlanması, əmlaklarının zəbt edilməsi, mollaların təqib olunması, mədrəsələrinin bağlanması, hər cür dini tədrisin ləğv edilməsi, dini ayinləri icra edən azərbaycanlılara qarşı təzyiqlərin aparılması, müsəlman bayramlarına qarşı yönəldilmiş qadağan işlərinin təşkil olunması, habelə yeni hakimiyyət tərəfindən süni şəkildə dinliləşdirilmiş (novruz bayramı) və sadəcə milli mentalitetlə əlaqədar xalq adətlərinə qarşı, (məsələn, kişilərin papaq qoyması) yönəldilmiş qadağa işləri; dinə qarşı kütləvi tədbirlərin, teatrlaşdırılmış tamaşaların, konsertlərin, dinə zidd mövzularda diskussiyaların keçirilməsi, bu tədbirlərə kütləvi informasiya vasitələrinin (radio, qəzetlər, jurnallar) cəlb edilməsindən ibarət idi.

**"Allahsızlar İttifaqı"nın Azərbaycanda fəaliyyəti və onun dinə qarşı apardığı siyasət**

Bolşeviklər inqilabi çevrilişdən sonra bütün sahələrdə hücumlarını davam etdirərək əsas məqsədlərini əhalinin dini etiqadına yönəltdilər. Bu məqsədlə hər bir vasitədən istifadə etməyi qərara aldılar. Müxtəlif adlarda təşkilatlar, ittifaqlar və cəmiyyətlər yaradaraq Sovet hökumətinin dini strategiyasını müəyyən etdilər.

Din əleyhinə mübarizənin ilk toxumlarını 1922-ci ildə yaradılmış "Bezbojnik" qəzeti qoydu [13, 2]. Bolşeviklərin bu adı seçməkdə məqsədləri ateist dünyagörüşünə istinad edilməsi idi. Belə ki, yunan dilindən tərcümədə "ateist" allahsız demək idi. İlkin mərhələlərdə cəmiyyət şəklində yaranan bu təşkilat 1925-ci ildə "Ümumittifaq Allahsızlar İttifaqı"nın əsasını qoydu. Təşkilat yarandığı zaman rus əhalisi üçün nəzərdə tutulmuşdur, lakin zaman keçdikcə islamın hakim olduğu torpaqlara da yayıldı və islamla mübarizədə başlıca quruma çevrildi. Bu təşkilatın məramı və məqsədləri qəti müəyyənləşərək 1929-cu ildə "Mübariz Allahsızlar İttifaqı" adı altında Kommunist Partiyasının ölkədə dinə qarşı mübarizə vəzifəsini öz qarşısına qoydu [14, 3]. Sovet bolşeviklərinin rəhbərliyi altında din əleyhinə mübarizə cəbhəsinin kütləvi bir dəstəsi kimi təşkilat 1941-ci ilə qədər dinə qarşı

[1] Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi

mübarizəni sosializmin düşmənlərinə qarşı mübarizə şüarı altında fəaliyyətə başladı. Belə bir təşkilata malik olmaqla sovet liderləri islama qarşı mübarizədə təsirli və geniş imkanlara sahib bir qurum qazandılar.

Təşkilatın Azərbaycandakı fəaliyyəti hələ 1923-cü ildən “Materialistlər klubu”nun simasında başlamışdı [15, 122]. Bakıda təşkil olunan bu klubun əsas məqsədi dini görüşlərə qarşı materialist, marksizm, leninizm təbliğatını qoyaraq əhalinin müxtəlif təbəqələri içərisində, müxtəlif auditoriyalarda din əleyhinə məruzə və mühazirələrin oxunmasını, qəzet və jurnallarda məqalələrin, ədəbiyyat nəşrlərinin təşkil edilməsi idi.

Klubun təşkilatçıları S.Ağamalıoğlu, S.Əfəndiyev, Q.Musabəyov, Ə.Qarayev, R. Axundov və başqa kommunistlər idilər. Görülən işlərin nəticəsində 1924-cü ilin avqust ayında Azərbaycan Kommunist Partiyasının Bakı komitəsi “Allahsızlar İttifaqı”nın və müvəqqəti bürosunun yaradılması haqqında qərar qəbul etdi. Müvəqqəti büronun vəzifəsi İttifaqın nizamnaməsinin, iş planının və təlimatının hazırlanmasından ibarət idi. Bu qərarın icrası 1925-ci ilin mart ayında həyata keçdi. [16,8]

1925-ci ilin sonlarında “Allahsızlar İttifaqı” öz şöbələrini Bayılda, sonralar Bakının başqa rayonlarında genişləndirərək din əleyhinə mübarizənin yeni və güclü mərhələsinə başladı. [17,162]

“Mübariz Allahsızlar İttifaqı” bolşevik hakimiyyətinin qərarlarına əməl edərək əhali arasında kütləvi şəkildə din əleyhinə təbliğat işi aparmalı, bir çox istiqamətlərdə ateizmi təbliğ edərək elmi-kütləvi işləri gücləndirməli idi.

Din əleyhinə aparılan təbliğat işlərinin əsasını zəhmətkeş kütlələr arasında məruzələrin, fərdi söhbətlərin, disput axşamlarının keçirilməsi təşkil edirdi. Bu məqsədlər üçün təbliğatçılar insanın yaranma tarixini, təbiət elmlərinin meydana çıxmasında dinin rol oynamadığını sadə insanlara çatdırmalı, bununla da xalqı maarifləndirməli idilər. Dinə qarşı təbliğat-təşviqat işlərini mədəni tədbirlərin köməyi ilə də möhkəmləndirməli idilər.

“İttifaq”ın üzvləri ölkənin ziyalı ordusunu da din əleyhinə apardığı işin bir hissəsinə çevirmək məqsədi güdürdü. Müxtəlif klubların, dərnəklərin köməyi ilə kolxoz və sovxozlarda kütləvi təbliğat işlərini apararaq əhalini dindən ayırmağa cəhd edirdilər. Ateist dünyagörüşünün orta və ali məktəblərdən başlayaraq tədris edilməsi, gənclərin dindən uzaq şəkildə tərbiyə edilməsi kütləvi hal alırdı. Ən əsas qüvvə isə dini bayramların keçirilməsinə qarşı yönəlmişdi. Dini bayramlar əhali arasında dini hissləri gücləndirdiyinə, aparılan antidin təbliğatına mane olduğuna görə onlara qarşı xüsusi canfəşanlıq göstərilir, həmin bayram və mərasimlərin keçirilməsinə hər vəchlə mane olurdular. Azərbaycanda geniş vüsət almış Qurban, Ramazan, Mövlud və məhərrəmlik mərasimlərinin keçirilməsinə qarşı təşviqat işlərinin əsas hissəsini ateistik ədəbiyyatın nəşr edilməsi, yayılması təşkil edirdi [18, 7].

1925-ci ildə “Ümumi Allahsızlar İttifaqı”nın Bakı şöbəsi kimi yaranan təşkilatın əsas vəzifəsi zəhmətkeşləri “dini tiryəkdən” azad etmək uğrunda çalışmaq, bütün şüurlu fəhlə və kəndlilərin fəal mübarizəsini, onlarda elmi

materialist dünyagörüşünü tərbiyələndirmək üçün onların hamısını "mübariz ateizm bayrağı" altında birləşdirməkdən ibarət idi [19, 53].

Lakin, müsəlmanlara qarşı yönəldilmiş bu təbliğat işləri səmərəli olmadığından dərsliklərin, kursların təşkil olunması qərara alınmışdı. Həmin illərdən qalmış maraqlı bir fakt da var: Azərbaycan və rus dilində təşkil olunmuş "ateist" kurslarına göndərilmiş 48 nəfərdən yalnız 38 təhsilini sona çatdırmışdı [20,12].

Kursların tədris proqramına dünyanın yaranışı, biologiya, mədəniyyət tarixi, dini etiqadın meydana gəlməsi və inkişafı, din və sinfi mübarizə, Məhəmməddən əvvəl ərəblərin vəziyyəti, Quranın nədən ibarət olması, dörd xəlifə dövləti və bu dövlət zamanında xəlifələrin hakimiyyət mübarizəsi, Əli və Müaviyə, Hüseyn və Yəzid müharibəsinin motivləri, İslamda siyasi partiyalar mövzusu daxil edilmişdi [21, 5].

1925-ci ildə Aİ-nın[1] nəzdində xristian, müsəlman və yəhudi dinlərinə qarşı təbliğatın metod və formalarını işləyib hazırlamaq məqsədi ilə yaranan üç komissiyanın İslam üzrə sədri kimi C.Məmmədzadə təyin edildi. [22,54]
1926-cı ilin mart ayının sonunda "Allahsızlar birliyi"nin əksəriyyəti rus və ermənilərdən ibarət olan 1200-1400 üzvünün iştirak etdiyi Bakı qurultayının iclasında Məmmədzadə və Yarigin... çıxış edərək "sosialist cəmiyyətində dini mövhumata qarşı mübarizə haqqında" məruzə etdilər. Cəmiyyətin Bakı zəhmətkeşlərinə etdiyi müraciətdə şəhərin Sovetlər İttifaqından Şərqə açılan qapı olduğunu qeyd edərək ümid edirdi ki, cəmiyyət bütün şüurlu elementlər tərəfindən dəstəklənəcək [23, 55].

Dinə qarşı Bakıda açılan ilk muzeyə Leninqraddan 3200 adda müxtəlif eksponat və ədəbiyyat göndərilmişdir. [24,5,] Bu fakt göstərir ki, Rusiyada islam əleyhinə mübarizədə Azərbaycana böyük önəm verilirdi. İslam əleyhinə Azərbaycan dilində 20 rəsmi sənəd nəşr edilmişdi. 1927-28-ci illərdə "Allahsızlar birliyi"nin 28% azərbaycanlılardan təşkil olunmuşdur [25, 8, 15]. 1929-cu ildə Azərbaycan Kommunist (b) Partiyasının Mərkəzi Komitəsi etiraf etmişdir ki, 1927-ci ildən başlayaraq Azərbaycanda "Allahsızlar İttifaqı"nın fəaliyyəti nəzərə çarpacaq dərəcədə zəifləmişdir və bu da onları heyrətləndirirdi [26, 25].

1928-ci ildə islama qarşı hazırlanmış olan birbaşa hücuma rəsmi olaraq hökumət üzvlərindən Milli Xalq Komissarı M.Quliyev rəhbərlik edirdi. İslama qarşı ciddi məruzələrlə çıxış edərək o, dinə qarşı baş hücum planının mədəni inqilab şüarı altında keçirilməsini və bir sıra tədbirlərin müddəalarının hazırlanmasını təklif etmişdi. [27, 5] Kəndlərdə kollektivləşmə xəttinin irəli sürülməsi ilə əlaqədar "Allahsızlar cəmiyyəti"nin gücünə böyük ehtiyac duyan rəhbərlik "İttifaqı"n Azərbaycan şurasının bütün özəklərində köklü dəyişikliklər aparmaq qərarına gəlir, təşkilatın genişlənməsinə zəmin yaradaraq, onun

[1] Allahsızlar İttifaqı

sıralarına məsul işçilər, komsomolçular, kommunistlər formal olaraq yazılmağa sövq edildi [28, 113].

Artıq 1930-cu ildə Allahsızlar təşkilatının Bakıda 25 min, bütün Azərbaycanda isə 45 min üzvü olur. [29, 48] 1932-ci ildə Mərkəzi Komitənin təkidi ilə təşkilatın üzvlərinin sayı zəhmətkeş kütləsinin cəlb edilməsi ilə artırılaraq 25%-i qadınlardan ibarət olan 80 min nəfərlik təşkilata çevrilmişdi. [30, 23].

1937-ci ildə dərc olunan “SSRİ-də[1] Mübariz Allahsızlar 15 ildə” adlı statistik məlumat dərc olundu. Bu məlumatda qeyd olunurdu ki, 1930-cu ildə Azərbaycanda MAİ-nın[2] üzvləri 3 mindən çox olmamışdır [31, 59].

Yuxarıda qeyd etdiyimiz rəqəmlərlə statistik məlumatda qeyd olunanları müqayisə etdikdə Azərbaycanı Aİ–ın rəhbərliyi tərəfindən bu rəqəmlərin şişirdilməsinin bariz nümunəsi kimi göstərmək olar. Məlum olduğu kimi, yalan və şişirdilmiş məlumatlar elə Allahsızlar İttifaqının öz rəhbərləri tərəfindən də üzə çıxarılmış, bununla Azərbaycanda islama qarşı mübarizənin baş tutmadığı dolayısı ilə də olsa etiraf edilmişdir.

Azərbaycanda 1928-1936-cı illər dövründə dinə aid dərc olunmuş bütün qərarların bir və ya iki bəndi “MAİ”-nin güclənməsinə, genişlənməsinə və canlanmasına həsr olunmuşdu [32, 293]. Bu ittifaqın fəaliyyətindəki ümumi qüsur onun dinə qarşı mübarizəni müntəzəm və ardıcıl aparmamağında, sadəcə olaraq məhərrəmlik, orucluq və qurban bayramı əleyhinə apardığı təbliğat işinin kobud formalarının tətbiq edilməsində, inzibati tədbirlərdən istifadə edilməsində, din xadimlərinin və dindar adamların hisslərinə toxunulması kimi hallara yol verilməsində özünü göstərirdi. 1936-1937-ci illərdə bir-birinin ardınca təyin olunan antidin başçıları fəaliyyətsizliklərinə və effektsiz işlərinə görə vəzifələrindən azad olunurdular. Azərbaycanın 35 rayonunda 18 min nəfərlik 352 üzvlük qanadını yaratmalarına baxmayaraq, bu onların repressiyadan xilas olmalarına səbəb olmadı [33, 30].

Fəaliyyətlərinin qeyri kafi qiymətləndirilməsinə baxmayaraq bu təşkilatın üzvlərinin sayı müntəzəm olaraq artırılır və 1939-1940-cı ilin məlumatlarında 129662 nəfəri əhatə etməklə 3320 özək olmuşdur ki, bunun da 57592 nəfəri müsəlman mənşəli azərbaycanlılardan ibarət olduğu qeyd olunurdu [34, 294].

Bu zaman ziyalıların Allahsızlar İttifaqına cəlb edilməsinə xüsusi diqqət yetirilirdi. Məsələn, AK(b)P MK-nın “Din əleyhinə təbliğat haqqında” 1937-ci il 24 iyul tarixli qərarından sonra Yazıçılar İttifaqında və Azərfilmdə MAİ-nin özəkləri yaradıldı. Onlara ateizm mövzusunda əsərlər yazmaq tapşırıldı, yazıçı Sabit Rəhman isə özəyin sədri seçildi [35, 15]. Eləcə də dinə qarşı həkimlərdən istifadə edilir, həkimlər qəzalara göndərilərək orada oruc tutmağın ziyanını təbliğ edirdilər. Artıq 1940-cı ildə ölkə ərazisində antidini təbliğatın fantastik

[1] Sovet Sosialist Respublikaları İttifaqı
[2] Mübariz Allahsızlar İttifaqı

ölçülərlə keçirilməsini rəqəmlər təsdiq edirdi. Belə ki, MAİ-nin dəstəyi ilə din əleyhinə 2567 mühazirə oxunmuşdur ki, bu da 212.105 insanı əhatə edirdi [36, 291].

Şişirdilmiş rəqəmlər sayəsində tarixi ədəbiyyatda "Allahsızlar İttifaqı"nın böyük bir iş gördüyü irəli sürülürdü. Qeyd olunurdu ki, "...Cəmiyyət, xalqı mənəvi cəhətdən azad etmək, onları dinin dumanlandırıcı zəhərindən xilas etmək uğrunda fəal mübarizə apararaq bütün şüurlu fəhlə-kəndliləri "mübariz ateizm bayrağı" altında toplaya bilmişdir" [37, 456].

"Allahsızlar İttifaqı"nın fəaliyyətinin bu cür şişirdilməsi əslində Sovetlərin dinə qarşı siyasətində əsas rol oynaya bilməzdi. Bu kimi tədbirlər rejimin inzibati amirlik metodlarına əsaslanan təzyiq və repressiyalar fonunda əldə olunmuş "nailiyyətlər" baxımından yuxarıda qeyd olunduğu kimi formal xarakter daşıyırdı, yəni, bu üzvlərin say miqdarının artmış olması, əsl allahsızların sayının artması onların (səmimi) sadiq şəkildə ateist olduqlarının göstəricisi deyildir.

Eyni zamanda bu cəmiyyətin azərbaycanlılar üçün ağır mənəvi təhqir sayılması, hətta onun öz dini səviyyəsindən asılı olmayaraq Ceyhun Hacıbəyli tərəfindən haqlı olaraq göstərilməsi, [38, 54] bu təşkilatın böyük miqdarda tərəfdaş yığmaq arzusu ilə aparılan təbliğatın qabaqcadan məğlubiyyətə düçar olmasını görmək olardı. Tarixən dini və milli köklərinə bağlılıqları ilə seçilən azərbaycanlılar arasında bu tipli bir təşkilatın uğur qazanması son dərəcə çətin idi.

Tədqiq olunan dövrdə "Allahsızlar İttifaqı"nın üzvləri din əleyhinə kitab və kitabçalar, elmi və kütləvi xarakterli broşuraların yazılmasında və nəşrində aktiv iştirak etmişdilər. 1928-ci ildə "Allahsızlar İttifaqı"nın Bakı şurası tərəfindən "Din və Proletariat" adlı xüsusi kitabçası din əleyhinə mübarizə aparan təbliğatçılara kömək məqsədi ilə nəşr edildi. Bununla "Allahsızlar İttifaqı" gələcəkdə nəşr olunacaq din əleyhinə bir çox elmi-kütləvi kitabçaların Türkcə nəşrinə başlayaraq onun istər ateist dərnək üzvlərinə, istərsə də kütləvi oxuculara istismarçı siniflərin əlində əlverişli nəzəriyyə olan, dini inkar edən, cəmiyyət və təbiəti elmi materialist nöqteyi nəzərindən izah etmək məqsədi güdürdü. [39, 21]

1929-cu ildə "Azərnəşr"də din, xüsusilə də İslamla mübarizə aparan təbliğatçılar üçün Azərbaycan dilində "İşçi allahsızlar dərnəkləri üçün dərs kitabı" nəşr olunur. Mənbəyi rus dilində olan din əleyhinə mübarizə işlərinin xüsusiyyətinə aid olan kitabda İslam dininin yaranma tarixi, İslam dininin məzhəbləri, İslam mədəniyyəti, Ramazan, Qurban, məhərrəmlik mərasimləri, islamda qadın məsələsi haqqında məlumat verilmiş, bu kimi məsələlər kommunizm nöqteyi nəzərindən izah edilmiş və geniş xalq kütlələrinə çatdırılmışdır. [40, 22]

Rus kommunistlərinin iddiaları müsəlman kommunistləri tərəfindən 1928-1930-cu illərdə, "İslam", "Mədəni inqilab və İslam", "Panislamizm, imperializm və ruhaniyyət", "Orucluğun əmələ gəlməsi", "Qurban kəsmək

haqqında”, “Məhərrəmlik münasibətilə”, “Din və Qadın” və s. kimi kitab və kitabçaların hazırlanaraq ictimaiyyət arasında yayılmasında özünü göstərirdi. Ümumiyyətlə, 1930-cu ilə qədər ümumi tirajı 160 min nüsxəyə çatan 32 əsər buraxılsa da, ateist kadrlarının yetişdirilməsində mühüm rol oynamamışdır. [41, 50] C.Hacıbəyli din əleyhinə təbliğatda bu cür kitabçaların nəşrinin zəif olduğunu, orijinal əsərlərin az olduğunu, tərcümə edilmiş ədəbiyyatın isə, dinə və ilahiyyata qarşı nəzəri fikirləri çıxmaq şərti ilə, müsəlman reallığına uyğun gəlmədiyini göstərmişdir. [42, 61] Bu kimi səbəblərdən də həmin əsərlər gözlənilən uğuru qazana bilməmişdilər.

Azərbaycanda din əleyhinə yaranan təşkilatın “Allahsız” adlı mətbuat orqanı da var idi. Burada bir faktı qeyd etmək də yerinə düşər ki, “allahsız” adı Azərbaycan dilində həm də pis mənalı bir söz kimi işləndiyindən xalq kütləəri bu ad altında nəşr olunan bir mətbuat orqanından xoşlana bilməzdilər. Ümumiyyətlə 20-ci illərin əvvəlindən başlayaraq bolşeviklər din əleyhinə mətbuatdan geniş istifadə edərək “Kommunist”, “Bakı fəhləsi”, “Kəndli”, “Yeni yol” qəzetlərinin, “İnqlab və Mədəniyyət”, “Şərq qadını”, “Gənc Bolşevik”, “Maarif və mədəniyyət”, “Kommunist tərbiyəsi uğrunda”, “Molla Nəsrəddin” jurnallarının nəşrini başlamışdılar [43, 152].

Dövrü mətbuat içərisində din və ruhanilik əleyhinə mübarizədə “Molla Nəsrəddin” satirik jurnalı bolşeviklər üçün xüsusi önəm daşıyırdı. Belə ki, bu jurnal Cəlil Məmmədquluzadənin başçılığı altnda 7 aprel 1906-ci ildən başlayaraq ətrafında Azərbaycan cəmiyyətinin qabaqcıl və mütərrəqi qüvvələrini toplayaraq öz səhifələrində məişətdə olan mövhumatı, xurafatı, dini fanatizmi tənqid edirdi. Jurnal nəinki dini fanatizmi, habelə həyatın aynasında əyri görünən nə vardırsa hamısını özünün əvəzsiz qələmi ilə ifşa etmiş və bu baxımdan geniş oxucu kütləsi qazanmışdır.

Bolşeviklər aprel inqilabından sonra bu cür məqamlardan ustalıqla istifadə edərək öz siyasi ideyalarını yaymağa çalışırdılar. Adı çəkilən jurnalın xalq kütlələri arasında geniş yayılmasından, onun naşiri Cəlil Məmmədquluzadənin nəinki Qafqazda, ümumiyyətlə müsəlman Şərqində tanınmış bir ziyalı olmasından öz anti din təbliğatlarında istifadə etməyi nəzərdə tutmuşdular.

“Molla Nəsrəddin” jurnalı bolşevik siyasətindən fərqli olaraq dinin məişətdən yox olmamağına çalışmış və özünün 4-cü sayında insanların Allaha, peyğəmbərə və imamlara itaət etmələrini vacib saydığını bildirmiş, lakin mövhumata səbəb olanları tənqid atəşinə tutmasını qeyd etmişdir [44, 9]. Bununla da jurnal ateist yönümlü deyil, proqressiv xarakterli, milli ənənələrə və dini tarixi köklərə hörmət edən bir mətbuat nümunəsi olduğunu açıq şəkildə göstərmişdir.

Azərbaycan KP MK-si (Azərb.Kommunist Partiyası Mərkəzi Komitəsi) din və mövhumat əleyhinə mübarizədə “Molla Nəsrəddin” jurnalından istifadə etmək haqqında 26 aprel 1923-cü il tarixdə qərar çıxarmışdır. Beləliklə, “Molla Nəsrəddin” jurnalı sovet hakimiyyətinin tərəfinə keçərək mövhumat, cəhalət,

köhnə adət və ənənələr əleyhinə öz ənənəvi mübarizəsini davam etdirməsinə baxmayaraq, 1925-1927-ci illərin dövrü mətbuatında C.Məmmədquluzadə və "Molla Nəsrəddin" jurnalı həyatla ayaqlaşa bilməməkdə təqsirləndirilmiş, kommunist fəalları tərəfindən dəfələrlə tənqid atəşinə tutulmuşdur [45, 5]. Bu cəhətdən Azərbaycan K(b)P MK-nın 9 aprel 1929-cu il tarixdə keçirilən "Dini xurafatla mübarizədə" respublika partiya təşkilatının vəzifələri haqqında məsələ müzakirə edən plenumun qətnaməsinə "Molla Nəsrəddin" jurnalının "din əleyhinə oxunaqlı, kütləvi, ucuz jurnal kimi yenidən təşkil edilməsinə" dair ayrıca bir təklif daxil edilmişdir. Bundan başqa, "Allahsızlar İttifaqı"nın işini gücləndirmək, Azərbaycan dilində din əleyhinə müntəzəm iş aparılması və genişləndirilməsi məqsədi ilə "Molla Nəsrəddin" jurnalının cəmiyyətin mətbuat orqanına çevrilməsi tövsiyə olunmuşdur [46, 23].

Azərbaycanda ateizm hərəkatının fəal iştirakçılarından olan İ.Dubinski "Din ilə mübarizə cəbhəsində" adlı məqaləsində yazmışdır: "Molla Nəsrəddin" jurnalı din əleyhinə mübarizədə lazımi iş görmür, "Mübariz Allahsızlar İttifaqı"nın Bakı və dairə komitələrinin dəfələrlə qərar çıxarmalarına baxmayaraq, bu vaxta qədər "Allahsız" məcmuəsi ilə əvəz edilərək nəşr olunmur. Maraqlı bir faktı qeyd edək: Azərbaycanda liberal və azad fikirli "Molla Nəsrəddin" jurnalı nəşr olunur. Məcmuənin nəşri üçün kifayət qədər vəsait buraxılır, lakin bu məcmuə əsl həqiqətdə onun öz redaktorunun orqanıdır. Elə güman edirik ki, bu işə son qoyulacaq və nəticə etibarı ilə mübariz allahsız işçi sinfinin öz məcmuəsi, orqanı yaranacaqdır" [47, 26].

Artıq 1931-ci il avqust ayından "Molla Nəsrəddin" jurnalı yeni heyət və redaktor tərəfindən Azərbaycan və Bakı "Allahsızlar" şurasının orqanı kimi nəşr olunmağa başlandı. Lakin bolşeviklərə din əleyhinə mübarizədə həqiqi ateist jurnalı lazım idi. Bu baxımdan jurnalın 6-cı sayından yəni 1932-ci ilin yanvar ayından etibarən jurnal "Allahsız" adı ilə nəşr edildi. Jurnalın məsul redaktoru Vəli Xuluflu, onun redaksiya heyəti Dubinski, Əhməd Tirinç, Sami Kamal, M.S.Ordubadi təyin olundular [48, 1].

Bolşeviklər jurnalın bu adla nəşr olunmasını "Əski "Molla Nəsrəddin" 25 illik mübarizəsində bir çox mühüm işlər görmüşsə də, ancaq rekonstruktiv dövrün tempinin qabağında getmək deyil, hətta dalından belə gedə bilməməyi ilə əlaqələndirmişdilər." "Molla Nəsrəddin" jurnalının 4-cü sayından onun ateist deyil, teist olması məlum olmuşdur. [49,8] Bu fakt isə jurnalla Sovet dövlətinin və Kommunist Partiyasının ideoloji xətti arasında mövcud olan dərin uçurumdan xəbər verirdi.

Göründüyü kimi bolşeviklər, özlərinin də etiraf etdikləri kimi "Molla Nəsrəddin" jurnalının teist olmasını, onların maraqlarına cavab verməməyini, dialektik materializmi təbliğ etməməyini qəbul edə bilməmişdir, bütün bunlar da öz növbəsində jurnalın adının dəyişdirilərək "Allahsız" adlandırılması ilə nəticələnmişdir.

Azərbaycan MAİ-nin Mərkəzi və Bakı Şurasının orqanı olan bu məcmuənin nəşr olunaraq cəmiyyət arasında yayılmasında məqsəd dinin və din

xadimlərinin ifşa edilməsi, təbiət və cəmiyyətə qarşı olan dini baxışların tənqid edilməsi, dialektik materialist dünya görüşünün, sosializm quruluşunun müvəffəqiyyətlərinin əleyhinə aparılan mübarizənin vəzifə və formalarının tədqiq edilməsi, Azərbaycanda vahid dinsizlər cəbhəsinin əmələ gətirilməsi, mübariz allahsızlar kadrosunun hazırlanmasından ibarət idi.

**Sovet dövründə bolşeviklərin Azərbaycanda dini bayram və mərasimlərə qarşı mübarizə formaları**

Azərbaycanda Sovet hakimiyyətinin ilk günlərindən həyata keçirilən tədbirlər içərisində islam dininə dair dekret və qərarlar mühüm yer tuturdu. Bu tədbirlər marksizm-leninizm nəzəriyyəsinin belə bir müddəasından irəli gəlirdi ki, İslam sinfi cəmiyyətin məhsulu, istismarçıların ideologiyası olmuşdur. O, hakim və məhkum siniflərin olmasını təbliğ edir, eyni zamanda da insanın insan tərəfindən istismarına haqq qazandırır. Həm də bu prinsiplərdə ikinci sinif üçün yalnız mömincəsinə arzu olunur ki, birinci sinif ona mərhəmət eləsin [50, 14]. Bir sözlə, islam hakim sinfin öz tabeliyində olanların əməyini istismar etməsinə haqq qazandıraraq bunun əvəzində xalq kütlələrinə cənnət vəd edir. Beləliklə də islam dini işçi sinfin öz hüquqları və ədalətli bir dünya uğrunda mübarizəsinə mane olur ki, bu da kommunist ideologiyası ilə heç cür uyğun gələ bilməz [51, 8].

Bu baxış nöqteyi nəzərindən bolşeviklər Azərbaycanda islam dininin müx təlif mərasimlərinə, dini bayramlara, təziyələrə, matəmlərə, o cümlədən məhərrəmlik matəminə qarşı da mübarizə aparmışdılar.

**Məhərrəmliklə mübarizə**

Sovet dövründə dini adət-ənənələrin yaşamasından danışarkən ilk növbədə məhərrəmlik təziyəsinin adını çəkmək lazımdır. Təsadüfi deyildir ki, məhərrəmlik mövcud quruluşun baş ağrısına çevrilmiş, rəsmi dövlət orqanlarının müdaxilələrinə, ən sərt cəza tədbirlərinə baxmayaraq nəinki öz aktuallığını itirmiş, əksinə daha da populyarlaşaraq dini şüurun və milli kimliyin daşıyıcısına çevrilmişdir. Sovet dövründə yazılan bir çox elmi-ateizm təbliğatı aparan kitablarda ateist ideoloqların haqqında nifrətlə yazdıqları son dərəcə sarsılmaz dini adətə çevrilmiş, sovet alimləri "islam dininin qalıqları" mövzusunda danışarkən ilk növbədə məhərrəmlik mərasimi yada düşmüşdür. Xalqın din anlayışının qorunub saxlanmasında müstəsna rolu olan məhərrəmliyin xalqımızın milli-mənəvi şüurunda dərin tarixi kökləri, sovet dövründə ona qarşı hansı yollarla mübarizə aparılması və insanların bu mərasimdə fəal şəkildə iştirakı kimi səbəblərə görə bu mövzunu bir neçə başlıq altında araşdırmaq daha faydalı olardı.

**Məhərrəmliyin tarixi kökləri və onun Azərbaycan tarixindəki yeri**

Azərbaycanda aşura və ya məhərrəmlik adlanan bu mərasim nəinki şiə cərəyanı tərəfdarlarının hətta bütün müsəlmanların dini həyatlarında mühüm yer tutan bir ictimai, bəzi hallarda isə siyasi hadisədir. Tarixdən məlum olduğu kimi, Məhəmməd peyğəmbərin qız nəvəsi, xəlifə Əli ibn Əbu Talibin oğlu, şiələrin üçüncü imamı Hüseynin öldürülməsinin ildönümünü qeyd etmək

məhərrəmlik mərasiminin əsasını qoymuşdur. Tarixi mənbələr göstərirlər ki, 680-ci ilin oktyabr ayının 10-da, hicri tarixlə 19-cu ilin məhərrəm ayının Aşura adlanan 10-cu günündə baş vermiş bu hadisə məhərrəmlik matəminin meydana gəlməsi üçün bir səbəbə çevrilmişdir. [52, 116-117]

Öz ictimai-siyasi mənşəyi etibarilə məhərrəmliyin daha dərin kökü və səbəbi vardır. Məhərrəmlik xilafət hakimiyyətinin başında duran Üməyyə sülaləsi ilə xəlifə Əlinin mənsub olduğu Haşimi sülaləsi arasında gedən mübarizə ilə bağlıdır. Xəlifə Əlinin şəhadətindən sonra hakimiyyəti ələ keçirən Müaviyə ibn Əbu Süfyan imam Əlinin böyük oğlu imam Həsəni xəlifəlik iddiasından əl çəkməyə vadar etdi, onu siyasi həyatdan uzaqlaşdırdı. Lakin imam Əlinin digər oğlu imam Hüseyn bununla barışmayaraq qardaşı Həsən bin Əlinin şəhadətindən və Müaviyənin ölümündən sonra mübarizə aparmağa başladı. O, İraqdakı xalqın tələbi ilə Bəsrə və Kufəyə getmək üçün öz tərəfdarları və qohumları ilə birlikdə Məkkədən İraqa yola düşdü. Lakin xəlifə I Yezidin sərkərdələri Kufə yaxınlığındakı Kərbəla səhrasında imam Hüseynin tərəfdarlarını mühasirəyə alıb namərdcəsinə şəhid etdilər. İmam Hüseyn, onun oğlu Əliəkbər, qardaşı Abbas, böyük qardaşı imam Həsənin oğlu Qasim və digər qohumları şəhid oldular. Zaman keçdikcə bu hadisə İslam aləmində böyük əks-səda doğurmuş, ruhanilərin fəal iştirakı ilə çoxlu sayda tərəfdarlar toplamışdır. [53, 116]

Məhərrəmlik ayı müsəlmanlar və xüsusən şiələr üçün müqəddəs ay sayılır. Bu ayın birinci on günü və bundan sonra 40 gün ərzində şiələr imam Hüseynin qətli münasibətilə təşkil edilən matəm mərasimlərində mərsiyə adlanan matəm mahnıları oxuyur, sinə vurur, ehsan verirlər. Məhərrəmlik matəminin zirvəsini məhərrəm ayının doqquzuncu və onuncu günləri (bu günlər müvafiq olaraq tasua və aşura adlanırlar) təşkil edir. Həmin günlərdə şiələr sinə vurur, bəzi adamlar isə zəncirlə özlərini döyürlər. Matəmin "ərbəin" adlanan qırxıncı günü (axırıncı günü) də şəbih, rövzə və ibadətlərlə keçirilir, ehsanlarla bitir.

Azərbaycan ərazisində məhərrəmlik mərasiminin kütləvi şəkildə keçirilməsini tarixçilər Səfəvilərin hakimiyyəti ilə bağlayırlar. Məlum olduğu kimi, təəssübkeş şiə nəslindən olan Səfəvi hökmdarları öz hakimiyyətləri dövründə Misirdə VII-X əsrlərdə şiəliyi rəsmi dövlət dini elan etmiş Fatimilərin hərəkətini təkrarlayaraq analoji addımı atmışdılar. 230 il ərzində hökmranlıq etmiş Səfəvilərin siyasi platformasında məhərrəmlik mərasimi də mühüm yer tutmuş, Osmanlılar və başqa sünni dövlətlərlə müharibə edərkən güclü dini-siyasi səfərbəredici vasitə kimi ondan istifadə etmişlər. [54, 61-62]
Həmin zamanlardan etibarən ölkəmizin ərazisində məhərrəmlik mərasimi kütləviləşmiş, xalqımızın məişətinə, adət-ənənələrinə daxil olmuş və son nəticədə xalqımızın şüurunda islamla bağlı olan mühüm bir dini ayinə çevrilmişdir.

 p-ISSN 2616-6879
e-ISSN 2617-751X

**Sovet Hakimiyyəti illərində məhərrəmlik matəminin keçirilməsi**

Məhərrəmlik təziyəsinin dini inancların xalqın yaddaşında yaşamasında oynadığı rol tarixən çox böyük olmuşdur. Məlum olduğu kimi məhərrəmlik deyəndə ilk növbədə ağla gələn şiə məzhəbinin nümayəndələri olur. Lakin faktlar göstərir ki, məhərrəmlik insanlarda dini şüur və milli kimliyin, necə deyərlər müsəlmanlıq anlayışının yaşamasında da mühüm rol oynamışdır. Etnoqrafik mənbələr göstərir ki, bu ay ərzində respublikanın müsəlmanlar yaşayan bütün ərazilərində toy, nişan, elçilik və sairə şənlik mərasimləri keçirilmirdi. Bu da həm sünnilərin, həm də şiələrin məhərrəmliyi islamın əməl olunması vacib olan bir ritualı saydıqlarının göstəricisidir.

Sovet dövrü tədqiqatçılarının iddia etmələrinə baxmayaraq, məhərrəmlik yaşlıların, geridə qalmış insanların, kənd yerlərində yaşayanların əməl etdikləri bir mərasim deyildi. Bakıda, Abşeron yarımadasında, Cənub bölgəsində məhərrəmlik xüsusilə geniş şəkildə keçirilir, [55, 16] sovet hakimiyyət orqanlarının inzibati tədbirlərinə baxmayaraq matəm mərasiminə dindarlar tərəfindən əməl olunurdu. Bu matəmdə xeyli sayda uşaq və gəncin iştirakı, həm də onların sayının ildən ilə intensiv şəkildə artması mərkəzi hakimiyyət üçün son dərəcə arzuolunmaz bir tendensiyadan xəbər verirdi. Təbliğat və təşviqat işlərinin səmərə vermədiyi yerlərdə inzibati tədbirlərə əl atılması məhərrəmlik təziyədarlığının rəhbərliyi nə qədər qıcıqlandırdığının bariz göstəricisidir. Məsələn, 1960-cı ildə Gəncədəki "Şah Abbas" məscidində Aşura günü mərasimində 60 nəfərə yaxın gəncin iştirakından sonra məscidi bağlayaraq muzeyə çevirmişlər. [56, 32]

Lakin bütün bu maneələrə baxmayaraq şiələr məhərrəmliyi qeyd etməkdə davam edirdilər. Statistik məlumatlar əhalinin bu tədbirlərdə böyük həvəslə iştirak etdiyini sübut edir. 1958-62-ci illərdə ölkənin cənubunda-Sabirabad, İmişli, Lənkəran, Masallı, Yardımlı, Salyan, Füzuli rayonlarında, Naxçıvan MR-nın Culfa rayonunda, Abşeron yarımadasının bir sıra yaşayış məntəqələrində (Əmircan, Keşlə, Zabrat, Binə, Qala, Kürdəxanı) hökumət tərəfindən qeydə alınmamış mollalar məhərrəmliyi keçirmək üçün məscidlərin ələ keçirilməsi və təmiri üzrə əhalinin aksiyalarına başçılıq edirdilər. Həm də aşura günü uşaqların iştirakı ilə keçirilir, zəncir və xəncərlə özünə əzab verməklə müşayiət olunurdu. Aşura günü mərasimi başqa məscidlərdə, o cümlədən paytaxtda "Təzə Pir" məscidində də keçirilirdi [57, 13; 58, 85].

Daha bir maraqlı fakt sovet təbliğatçıların özlərinin məhərrəmlikdə qadınların çox aktiv şəkildə iştirak etdiklərini etiraf etmələri idi. Məhərrəmlik təziyəsində iştirak edən qadınlara qadın mollalar başçılıq edirdilər. Bəzən isə matəmdə iştirak edənlərin yarıdan çoxu qadınlar olurdu. Bəzi yerlərdə qadınlar üçün ayrı-ayrı evlərdə xüsusi təkyələr təşkil edirdilər. [59, 33]

Nadir hallarda olsa da matəm mərasimində vəzifəli və savadlı adamların iştirak etmələri sovet dövrü tədqiqatçılarının nəzərindən yayınmamışdır. Hakimiyyət orqanlarının məlumatlarına görə, İmam Hüseynə görə matəm mərasimləri zamanı müxtəlif bölgələrdə, xüsusən cənub rayonlarının

sakinlərindən xeyli hissəsi işə çıxmır, ya da işləməkdən boyun qaçırırdılar. Onlar bunu belə izah edirdilər ki, matəm günü işləmək olmaz. [60, 10]

Düzdür, inqilabdan əvvəlki zamanlardan fərqli olaraq, sovet dövründə məhərrəmliyin bir çox təzahürlərinə çox az rast gəlinir və ya heç rast gəlinmirdi. Məsələn, kütləvi nümayiş, Qasım otağı bəzəmək, tuğ gəzdirmək və sairə kimi adətlər hakimiyyət orqanlarının inzibati tədbirləri və təbliğatçıların səyi nəticəsində demək olar ki, edilmir. Dindarlar adətən məscidlərdə, məscid olmadığı hallarda isə evlərdəki təkyələrdə toplaşıb İmam Hüseyn əhvalatı haqqında mollaların danışdıqlarına qulaq asır, İmamın xatirəsini qeyd edir, sinə vurur və ağlayırdılar. Bir çox hallarda məşhur ziyarətgahlarda və pirlərdə keçirilən mərasimlərə ətraf yaşayış məntəqələrindən də gələnlər olurdu. Bərdədəki "İmamzadə" ziyarətgahında təşkil olunan mərasimə Ağdam, Yevlax, Şuşa və başqa yerlərdən adamların gəlməsi halları məlumdur. Eyni zamanda Gəncə yaxınlığında yerləşən "Göy İmam" məqbərəsinə də Xanlar, Şəmkir, Şəki, Qazax, Tovuz və başqa rayonlardan möminlər gəlir, matəm izdihamlı şəkildə keçirdi ki, bu da öz növbəsində rəsmi dairələri ciddi narahat edirdi. [61, 34]

1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Əmək Komissarlığının qərarı ilə Ramazan, Qurban, Aşura, Bistü Həştüm, Mövlud-Nəbi ilə birlikdə Novruz da azərbaycanlı fəhlə və qulluqçular üçün əmək haqqı saxlanılmaqla istirahət günləri elan edildi. Cümə günü isə həftənin bazar günü elan edildi. Cümə günü ilə əlaqədar olaraq hətta partiya iclaslarının keçirilməsi də qadağan edildi. [62, 65]

Lakin bu dini liberalizm uzun sürməmiş, yeni sistemin hakimiyyətə başlaması və hakimiyyətdə öz dayaqlarını möhkəmlətməsi ilə birlikdə qısa bir zaman keçdikdən sonra bu bayramların və dini mərasimlərin keçirilməsi xeyli məhdudlaşdırılmışdır. Məsələn, 1920-ci ildə Azərbaycanda Qurban bayramı münasibətilə azərbaycanlı qulluqçu və fəhlələr iki gün işdən azad edilmişdilərsə, 1921-ci ildə Qurban bayramı zamanı yalnız bir gün işləməməyə icazə verilirdi. [63, 90] Həmçinin 1924-cü ildə əvvəllər 2 gün bayram edilən Novruz və Ramazan bayramlarının hərəsinin bir gün qeyd edilməsi haqqında qərar çıxarılır. [64, 42]

1925-ci ildə həmin məsələyə yenidən baxan Azərbaycanın Xalq Əmək Komissarlığı Azərbaycan K(b)P Rəyasət heyətinin 1925-ci il 14 mart tarixli qərarı ilə Azərbaycanda 10 inqilabi və hər dini qrup üçün (müsəlman, xristian, erməni- qriqoryan) 6 dini bayram günü təsdiq edir. Lakin Zaqafqaziya Əmək Komissarlığı bu qərarı qəbul etməyərək bayram günlərinin 14 gündən artıq olmamasını qeyd edir, bu səbəbdən də 8 inqilabi və 6 dini bayram gününün təyin edilməsini məqbul sayır. [65, 43]

Artıq 1927-1928-ci illərdə Mövlud-Nəbi və Bistü Həştüm kimi dini bayramlar qadağan edildi. 1929-cu ildə yalnız Novruz, Qurban və Orucluq bayramları, Aşura günü saxlanıldı. Həmin ilin 13 fevral AK(b)P-nin Bakı Komitəsinin iclasında "Ramazan" və "Novruz" bayramlarına qarşı "kampaniyanın keçirilməsi" adı ilə qəbul edilən sənəd bu bayramların rəsmi

şəkildə hər hansı bir formada keçirilməsinə qadağa qoyur. Mart ayının sonuna qədər keçirilməsi nəzərdə tutulan bu tədbirlər planında 7-14 mart günləri “zərbəçi” həftə elan edilərək [66, 43] bütün istehsalat sahələrində, fəhlə və digər klublarda, “Allahsızlar İttifaqı”nın yerli özəklərində, mətbuatda, məktəblərdə, kitabxana və qiraətxanalarda tədbirlər keçirmək, dinin və o cümlədən, islam dininin “sosializm quruculuğu yolunda maneə olduğunu izah etmək, islamın və onun bayramlarının sinfi, irticaçı mahiyyətini izah etmək, onların mənşəyini və zərərli mahiyyətini” geniş şəkildə ictimaiyyətə çatdırmağı zəruri sayır.

Müəyyən dövr keçdikdən sonra bu tədbirlər də artıq hesab edilərək dinə qarşı geniş hücuma başlanıldı. Bunun məntiqi nəticəsi kimi, 30-cu illərdən başlayaraq “Dini bayramlar sovet təqvimindən çıxarılıb atıldı.” Onların əvəzinə sovet dövləti, ilk günlərdən başlayaraq yaranmış “mənəvi boşluğu” doldurmaq məqsədilə “inqilabi ruhda” yeni, qondarma mülki bayram və mərasimlər müəyyən etdi. Həmin bayramlara və istirahət günlərinə aid idi: Yeni il bayramı (1 yanvar), V.İ.Leninin vəfatının ildönümü (24) yanvar, mütləqiyyət dövründə fəhlələrin güllələnməsi günü (19/22 yanvar), mütləqiyyətin devrilməsinin ildönümü (12 mart), Paris Kommunası günü (18 mart), Azərbaycanda sovet hakimiyyətinin il dönümü (28 aprel), dünya fəhlələrinin həmrəylik günü (1-2 may), 26 Bakı komissarlarının güllələnməsinin ildönümü (20 sentyabr), proletariat inqilabının il dönümü (7-8 noyabr). [67,18] Beləliklə də sovet hökuməti öz bayram günlərini konkret şəkildə sistemləşdirdi və bu haqda qaydalar tətbiq etdi.

Bütün bunlardan sonra təbii ki, keçmişin qalığı hesab edilən, insanların şüurunda dini hissləri oyadan bayramlara və dini günlərə qarşı mübarizə geniş vüsət aldı. Belə dini ayinlərdən biri olan məhərrəmliyə qarşı mübarizə xüsusi bir səy və cidd-cəhdlə aparılırdı. Azərbaycanda məhərrəmlik əleyhinə aparılan mübarizə digər dini mərasimlərdən fərqli olaraq aparılmışdır. Belə ki, 1920-1930-cu illərdə din əleyhinə yazılan arxiv materiallarında xüsusilə məhərrəmliklə mübarizəyə daha çox diqqət yetirilməsi buna misal ola bilər. [68, 298]

Bu mübarizəyə daha çox diqqət yetirilməsi onunla bağlı idi ki, məhərrəmlik şiə Azərbaycanı üçün ən önəmli gözə görünən dini mərasimlərindən sayılır, habelə bu mərasimdə keçirilən şəbih tamaşaları, kütləvi yürüşlər, ehsanın kütləvi şəkildə olması bolşeviklər üçün potensial təhlükə sayılırdı. Bu səbəblərə görə də bolşeviklər tez bir zamanda məhərrəmliyə qarşı mübarizə aparmaq üçün müxtəlif üsullardan istifadə etməyə başladılar.

Birinci növbədə bolşeviklər məhərrəmliyə qarşı hələ inqilabdan əvvəl XX əsrin əvvəllərindən başlayaraq Azərbaycan cəmiyyətinin qabaqcıl və mütərəqqi qüvvələrini hətta ruhanilərini misal gətirərək, onların məhərrəmlik zamanı icra olunan zəncir vurma, baş yarma, müxtəlif cür özünə fiziki xəsarət yetirmə hallarına qarşı olmalarını qeyd edərək bütün bunlardan məhərrəmlik əleyhinə nəzərdə tutulmuş kompaniyalarda və təbliğatlarda istifadə edirdilər. Bu

zaman onlar tamamilə əsaslandırılmış şəkildə hələ inqilabdan əvvəl mütərəqqi ziyalıların və hətta bəzi din xadimlərinin də məhərrəmlik zamanı icra edilən hərəkətlərə qarşı çıxdıqlarını sübut edirdilər.

Bolşeviklər qeyd edirdilər ki, İslam təəssübkeşliyinin və onun doğurduğu nadanlığın ən iyrənc forması olan aşura mərasiminin xalq arasında yayılması keçən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan maarifçilərini çox ciddi şəkildə narahat etmişdir. O zaman bu məsələ Azərbaycanın ilk mətbu orqanı olan "Əkinçi" qəzetinin səhifələrində açıq müzakirə edilmişdir. Maarifpərvər ziyalı Həsən bəy Zərdabi Əkinçidə dini ayinləri həyata keçirərkən Quranda nəzərdə tutulan qaydalardan kənara çıxmaları zərərli hal hesab etmişdir. [69,101]

Eyni zamanda bu məsələnin bolşeviklər tərəfindən tənqid edilməsi 1906-cı il aprelin sonunda Tiflisdə C.Məmmədquluzadənin redaktorluğu ilə Azərbaycan dilində nəşr edilən satirik "Molla Nəsrəddin" jurnalının səhifələrində sistematik şəkildə həyata keçirilirdi [70, 21].

Göründüyü kimi, bolşeviklər bu şəraiti əsaslı surətdə qeydə alırdılar və məhərrəmlik əleyhinə təbliğat apararkən onlardan necə istifadə edəcəklərini aşağıda qeyd edəcəyimiz qərarlarında yer verməsi buna nümunə ola bilər.

1921-ci ildən başlayaraq Sovet hökuməti məhərrəmliyə qarşı genişmiqyaslı hücuma başladı. ASSR [1] MİK [2] və XKŞ-nın [3] o zaman dərc olunmuş əmrində deyilirdi: "Bir neçə gündən sonra min ildən çox bundan əvvəl imam Hüseynin və onun ailəsinin qətlinə dair illik ənənəvi matəm günləri başlayır. Onun ölümü ideya və daxili dövlət zəminində baş vermiş və son dərəcə ictimai xarakter daşıyırdı. Lakin islam tarixinin ilk illərindən başlayaraq acgöz Mollalar, Axundlar, mərsiyaxanalar və müxtəlif rütbə və dərəcəli digər şəxslər müsəlman xalq kütlələrinin avamlığı və cəhaləti üzündən bu hadisəni özlərinin ictimai mövqeyini möhkəmləndirmək, maddi gəlir mənbəyi və zəhmətkeş kütləleri kölə halında saxlamaq alətinə çevirmiş, bütün bunların sayəsində böyük sərvətlər toplamışlar. Bu səbəbdən fanatizmlə beyni zəhərlənmiş, hərarətli moizələrə aldanmış adamlar başlarını yarır, zəncir vurur və hər cür vəhşiliklərlə özlərinə əziyyət verirdilər. Həm də onların təşkil etdikləri, əhalinin rahatlığını pozan və xalqın fanatik kütləsini vəcdə gətirən matəm yürüşləri əksər hallarda dini ocaqlardan kənarda, şəhərimizin küçə və meydanlarında, hökumət idarələri yanında keçirilirdi. Sovet hökuməti bu cür fanatizm təzahür forması ilə barışa bilməzdi. [71, 298]

Elə bu səbəblə də bir sıra qadağalar tətbiq olunur. Bu qadağalar aşağıdakılardan ibarətdir. "Hər cür mərasimlər, işgəncə vermə, qamçılama, yürüş və bu vəhşi fanatizmin digər təzahürləri, o cümlədən matəm günlərinin də bundan sonra ancaq "məscidlər və ibadət evlərinin divarları arasında" keçirilməsinə icazə verilirdi." [72, 299].

[1] Azərbaycan Sovet Sosialist Respublikası
[2] Mərkəzi İcraiyyə Komitəsi
[3] Xalq Komissarları Şurası

Bununla yanaşı bolşeviklər anti məhərrəmlik kampaniyasında öz siyasi məqsədləri üçün xüsusi plakatlar hazırlayaraq “öz qanınızı tökməyin”, “İngiltərə və Avropa imperialistləri sizin qardaşlarınızı sıxışdıraraq alçaldır”, “onların azad olunması üçün mübarizə aparın” və yaxud “İmam Hüseynin ölümünə əmr verən Yezid bizim indiki dövrdə yezidə bənzər bəylərə, xanlara, kapitalistlərə qarşı mübarizə aparın” şüarını səsləndirirdilər. Hətta belə bir təklif partiya nümayəndələri Mirzə Davud Hüseynov, Dadaş Bünyadzadə tərəfindən Təzəpir məscidində məhərrəmlik haqqında çıxış edərkən irəli sürülmüşdür. [73, 76]

Bu kimi tədbirlər kütləyə fanatizmə qarşı mübarizə kimi göstərilir, Partiya kütlələrin diqqətini dini ayinləri icra etməkdən ümumi işə, daxili sinfi düşmənlərə, imperializmə qarşı mübarizəyə cəlb edirdi. Guya bu mübarizə istismarçılara, bəylərə və xanlara qarşıdır və məhərrəmliklə, o cümlədən dinlə heç bir əlaqəsi yoxdur. Lakin sonrakı illərdə məhərrəmlik əleyhinə hərəkat geniş kütləvi çıxışlar, kütləvi yığıncaqlar, bəyannamələr, dindarlarla kütləvi və fərdi iş, rövzəxanlığın ifşası və kütlələrdən təcrid edilib çıxarılması həm də islamın dini ehkamlarına, bütün ayinlərinə qarşı mübarizəyə çevrilmişdir. Din və ruhaniliyə qarşı müxtəlif forma və üsullarla mübarizə aparılırdı.

Artıq 1922-23-cü ildə rəhbərlik *“Şaxsey-vaxsey”* adətinin bütün növlərinə, küçə yürüşlərinə, şəhər küçələrində İmam Hüseynin şəhadəti nümayişlərinin keçirilməməyi haqqında qərar verir [74, 32]. Və bu qərarın verilməsini onunla izah edirlər ki, Sovet hökuməti kütlələrin, onun qabaqcıl nümayəndələrinin çıxışlarını və tələblərini nəzərə alaraq belə bir qərar vermişdir [75, 66].

Azərbaycan Kommunist (b) Partiyası Mərkəzi Komitəsi “Din və Dini ayinlər əleyhinə təbliğatı gücləndirmək haqqında” 1923-cü ilin fevral ayında qərar qəbul edir. Bu qərardan irəli gələrək Əliheydər Qarayevin məhərrəmlik əleyhinə çıxışları “Matəm kimə lazımdır” adlı xüsusi kitabça halında 3 min nüsxə ilə təbliğat işinə kömək məqsədi ilə nəşr edilir. [76, 64]

Kitabçada məhərrəmlik əleyhinə məsələlər bolşevik prinsipiallığı ilə izah edilirdi. Bu kitabçanın bölmələrindəki başlıqlar; “Kərbəla hadisəsi”, “Hüseyn matəmi indiki zamanda kimə lazımdır”, “Azərbaycan fəhlə və kəndlisi nə etməlidir?” tezisləri ilə kütləyə müraciət edərək yazır ki, “islam, onun ayinləri habelə məhərrəmlik ingilis və fransız imperialistlərinin Şərqdə apardığı müstəmləkəçilik siyasətinə xidmət edir. Gərək fəhlə-kəndli məhərrəmlikdə “bir damla qan tökməyib artıq qanını kapital ilə mübarizədən ötəri saxlasın”. Müəllif dindar zəhmətkeşlərə müraciət edərək göstərir ki, zəmanəmizin imperialist “Yezid şümürləri, keçmişin Yezid şümürlərindən min dəfə insafsız, namussuzdurlar. Gedib onunla mübarizə edə bilərsən.” [77 65] Bununla Ə.Qarayev zəhmətkeşlərin nəzər diqqətini Məhərrəmliyə qarşı mübarizənin əsas məsələlərinə və günün aktual siyasi probleminə cəlb edir, onları səfərbərliyə alır.

Məhərrəmlik təbliğatı aparılarkən diqqət edilməsi gərərkən məqamlar da vardır. Belə ki, "Əhalisi sünnilərdən ibarət olan qəzalarda bu mərasimləri keçirməyəcək, lakin əksinə, şiə qəzalarında güclü şəkildə keçirəcəklər. Ona görə də birinci növbədə məhərrəmliyə qarşı kampaniyanı aşağıdakı qəzalarda aparmaq təklif olunurdu "Naxçıvan, Şuşa, Gəncə, Lənkəran, Salyan, Cəbrayıl və Cavanşir qəzalarında habelə ikinci növbədə əhalisi şiə təriqəti azlıq təşkil etdiyi yerlərdə Şamaxı, Şəki, Göyçay, Zaqatala qəzalarında nəzərdə tutulurdu. Həmçinin Mərkəzi komitə tələb edirdi ki, əyalətlərdə şaxsey-vaxseyə qarşı heç bir tədbir görülməsin. Ancaq təbliğat-təşviqatla kifayətlənsinlər [78, 301]. Anti məhərrəmlik kampaniyasında bu adətlərin əleyhinə olan nüfuzlu "vaizlərdən" və şeyxlərdən istifadə etmək təklif olunurdu. Elə bu səbəblə də Sovetləşmənin ilkin dövründə Azərbaycan Kommunist Partiyasının mətbu orqanı olan "Kommunist" qəzetində Bakı qazisi Axund Əbdürrəhim Hadizadənin dərc olunmuş müsahibəsini göstərmək olar. Axund İmam Hüseynin anma mərasimi zamanı keçirilən dini fanatizmi pisləmiş və bu cür hərəkətləri imam Hüseynin xatirəsini və məhərrəmlik təziyadarlığını hörmətdən salan canfəşanlıq adlandırmışdır. [79, 121]

Eyni zamanda Bakının nüfuzlu ruhanilərindən olan Axund Əbdülqəni Axundzadə Təzəpir məscidində ibadət edənlər qarşısında söylədiyi moizəsində demişdir: "Vətəndaşlar, vəhşi hərəkətlərdən imam Hüseynin ruhu da ziyadə müəzzəb olur, hərgah savab qazanmaq, cənnətə getmək üçün təziyə tutursanız əmin olunuz ki, təziyəni bu cür tutanlar cəhənnəmin ən dibinə getməyə layiqdirlər". [80, 122]

Göründüyü kimi, bolşeviklər məhərrəmlik əleyhinə kampaniyada ruhanilərin fəaliyyətlərindən də bəhrələnmişdilər. Bu vəziyyət demək olar ki, bolşeviklərin ilkin dövrdə sovetlərin islamın müdafiəçisi rolunda tezisini yaymaq üçün mollaların köməyi ilə öz siyasətlərini həyata keçirmələrinə bənzəyir. Həmçinin məhərrəmliyə qarşı bu dini ayinin aparıcı qüvvəsi olan molla və axundlardan istifadə etməsi bolşeviklərin ağıllı və düşünülmüş siyasətinin uğurlu nəticəsi sayıla bilərdi.

Hansı ki, istər əsrin əvvəllərində istərsə də inqilabdan sonrakı illərdə ruhanilik tənqid edilmişdir. Onlar xalqı itaətdə saxlamaq üçün imperializmə kömək etməklə günahlandırılaraq ruhaniyyətin hər bir modernizm və tərəqqinin qəddar düşməni olduğunu, daima inqilab ilə mübarizə apardıqlarını qeyd etmişdilər. [81, 25-28]

İldən ilə məhərrəmliyin matəm günlərinin yaxınlaşması ərəfəsində əvvəlki illərdə buraxılmış səhvləri sayaraq yeni metodlara keçmək qərarı alınır. Partiya rəhbərliyi məhərrəmlik barəsində kino çəkmək, teatr tamaşaları yaratmaq, bu məsələyə aid xüsusi plakatlar və kitabçalar hazırlanması barəsində qərarlar qəbul edir. Məsələn 1924-cü ildə "Az kino" anti məhərrəmlik əleyhinə Şıxovda keçirilən şaxsey-vaxsey prosesini çəkmək qərarına gəlir ki, bu çəkilişdən təbliğat işlərində istifadə etmək nəzərdə tutulurdu, lakin möminlərin bu tədbirə qarşı olması səbəbilə çəkiliş dayandırılır. [82, 23] Eləcə də

“Satiraqit” teatr dərnəyi təşkil edilərək anti məhərrəmlik əleyhinə tamaşalar göstərilir, məsələn: “Məhərrəmlik Mikrobları”, “Necə qanlı yaşları tökməmək olmaz” pyesləri Bakı və ətrafındakı fəhlə rayonlarda, qəzalarda tamaşaya qoyulurdu. [83, 70]

Bolşeviklərin dinə qarşı ideya mübarizəsində istifadə etdikləri formalardan biri də disputlar idi. Bu, adamları özünə daha artıq cəlb edən formalardan biri idi. Disputlar əhali qarşısında ateistlərlə din tərəfdarlarının açıq mübahisəsini təşkil etmək yolu ilə dini ehkamların əsassız və uydurma olduğunu sübut etmək məqsədini güdürdü. Lakin bir sıra arxiv sənədlərində, qəzet materiallarında və din əleyhinə buraxılan ədəbiyyatda 1923-1925-ci illərdə Bakıda bəzi disputların lazımi dərəcədə hazırlanmadan keçirildiyinə dair məlumatlar vardır. Buna misal olaraq Bakının Ağşəhər klubunda 1924-cü il məhərrəmlik günlərində keçirilən disputu göstərmək olar. Disputu keçirən ateistin kifayət dərəcədə hazırlığı olmadan molla ilə qarşılıqlı mübahisəsində o, necə deyərlər, dayana bilməmiş və məğlub vəziyyətə düşmüşdür. Bununla da disput yarımçıq dayandırılmışdır. [84, 124]

Aşura günləri şəhərdə fəhlələrin mərasimlərdə iştirak etməməyi üçün müxtəlif metodlardan istifadə edilirdi. Məsələn, aşura günü sosializm yarışı keçirilirdi. Bir zavodun və ya fabrikin kollektivi işə çıxaraq digər zavodun fəhlələri də bu nümunəyə qoşulmaq üçün çağırılırdı. Həmçinin şaxsey-vaxsey günləri nümayişlərin, gecələr isə kino və başqa tədbirlərin keçirilməsi təklif olunurdu. [85, 20]

1926-cı ilədək anti məhərrəmlik kampaniyası işləri gücləndirildi. Bu işlərdə fəal olan “Mübariz Allahsızlar Cəmiyyəti” əsas rol oynayırdı. Anti məhərrəmliyə qarşı 56 min nüsxə 3 adda kitab əhaliyə pulsuz paylanmış, 4 min plakat 2 adda buraxılmış və 1000 nüsxə xüsusi tezislər məruzəçilərə paylanmışdır. Bakı və onun fəhlə rayonlarında 2 seminar təşkil edilərək 50 məruzəçi hazırlanmışdır. Bu kampaniyada iştirak etmək üçün 38 qiraət yerləri açılmışdır ki, bu da 13 min dinləyicini əhatə edirdi. “Bismillah” kinosu göstərilmişdi ki, bunun da 30 min iştirakçısı var idi, onlardan da 1400 nəfəri qadın iştirakçılar olmuşdu. Antidini tamaşalar da yaddan çıxarılmırdı. Bu kütləvi kampaniyada “Türk bolşevik” jurnalı və “Damğa” qəzeti də fəal iştirak etmişdilər [86, 156].

Mətbuatın yazdığına görə bu tədbirlərin fonunda Məhərrəmlik Maştağada öz kütləviliyi ilə seçilirdi [87, 32]. Eyni zamanda Naxçıvanda özünə işgəncə vermək halları o qədər güclü olmuşdur ki, XDİK[1] əməkdaşları işə qarışmalı olmuşdular. [88, 21]

Təbliğat-təşviqat kampaniyasının nəticə göstərməməyi Azərbaycan Mərkəzi İcraiyyə Komitəsini məcbur etdi ki, yenidən məhərrəmlik barəsində qərar qəbul etsin. 1926-cı ildə qəbul etdiyi qərarda deyilirdi: “Bakı şəhərində və onun fəhlə rayonlarında məhərrəmliyin keçirilməsi bütün səpkidə rəsmi şəkildə

[1] Xalq Daxili İşlər Komissarlığı

qadağan olunur.” Daha sonra deyilirdi ki, “bu qərarı yerinə yetirməyənlər ASSR-nin cinayət məcəlləsinin 227-ci maddəsi üzrə məsuliyyət daşıyır və ya 300 manata qədər məbləğdə cərimə olunurlar.” [89,304]

1926-cı ildən Allahsızlar Cəmiyyətinin xətti ilə məhərrəmliyə qarşı mübarizə daha da gücləndirildi. Cəmiyyətin üzvləri, xüsusən də onun sədri Məmmədzadə əhali arasında çıxış edir və dinə qarşı “sinfi mübarizə” ideyasını təbliğ edirdilər. Maraqlı bir faktı da qeyd etmək yerinə düşər ki, bolşevik mətbuatı hər il məhərrəmlik münasibətilə Allahsızlar İttifaqını fəaliyyətsizlikdə təqsirləndirir, onları günün tələblərindən geri qalmaqda ittiham edirdilər. [90, 32]

Sonrakı illərdə dinə qarşı total hücumun başlanması məhərrəmliyə də öz təsirini göstərdi. 1929-cu ildən cinayət məsuliyyəti qorxusu altında 18 yaşına çatmamış şəxslərin məhərrəmliyin matəm mərasimlərində hər hansı şəkildə iştirakı qadağan olundu. Eyni zamanda şəxsi evlərdə kütləvi dini mərasimlərin keçirilməsi rəsmi surətdə ləğv olundu. Bütün bunlarla yanaşı Bakı Komitəsi xüsusi qərarla Aşura gününü iş günü elan etməyi tələb edirdi. [91, 67]

1929-cu ildə məhərrəmlik təziyyəsinin Respublikadakı görünüşü “Kommunist” qəzetində belə təsvir edilmişdir: “1927-ciilədək Məhərrəm təziyyələri son dərəcədə təntənəli aparılırdı. 1928-ci ildən bəri Məhərrəm təziyyələri, həmişəki kimi 40 gün deyil, ancaq 3-4 gün davam edir və hər məclis 2-3 saat çəkir.” [92, 177]

Bolşeviklər məhərrəmlik zamanı mövcud olan fanatizmi kütlə arasında maarifləndirmə yolu ilə başa salmaq əvəzinə inzibati cəza metodunu həyata keçirirdilər. Baxmayaraq ki, rəhbərlik partiya qurultaylarında əvvəlki illərdə həyata keçirilən administrativ tədbirləri tənqid edirdi. Lakin bu öz nəticəsini vermirdi. Bolşeviklər əməli işlərində yenə də inzibati cəza metodunu seçirdilər. Məsələn, Quba Rayonunun Baloğlan kəndində şaxsey-vaxsey mərasimi zamanı hakimiyyət tərəfindən mərasimin antisovet xarakterli olduğu iddia edilərək nümayişin rəhbəri Molla Daniyar güllələnmiş və mərasimin 12 nəfər iştirakçısına isə 1 ildən 6 ilə qədər həbs cəzası verilmişdir. Hakimiyyət tərəfindən dindarlara qarşı edilən bu hadisəyə haqq qazandırılması üçün onları qolçomaq hərəkatı ilə əlaqələndirmiş və mollanın müsadirəyə etirazı olduğunu qeyd etmişdilər. [93,35]

Hakimiyyətin bu cür haqq qazandırmaları onların təbliğat-təşviqat işlərinin formal olduğunun, bu prosesin inzibati cəza xətti ilə davam etdirildiyinin bariz nümunəsidir.

30-cu illərin ortalarından Sovet hakimiyyətinin təşkil etdiyi kütləvi repressiyalarla əlaqədar dindarların böyük miqdarda fiziki cəhətdən məhv edilməsi, həbs edilərək sürgünə göndərilməsi məhərrəmlik mərasiminə də öz mənfi təsirini göstərmişdir. Belə ki, əvvəlki dövrlərdən fərqli olaraq bu mərasimlərin açıq kütləviliyi azalmışdır, onlarda iştirak edən adamların sayında nəzərə çarpacaq dərəcədə geriləmə baş vermişdir.

1936-cı ildə Bakının 2 məscidində məhərrəmlik günləri ziyarətə gələnlərin sayı 400-450-yə çatmışdır. Bakının ənənəvi dini yaşayış yerləri olan "Bülbülə və Şıxovda" Aşura və imamın 40-cı günü insanların sayı 1200-1700 arasında dəyişirdi. Bu rəqəmlərə istinad edərək müvafiq orqanlar əvvəlki illərə nisbətən əhalinin daha passiv olması barədə məruzə edirdilər. [94,36]

Düzdür, əvvəlki illərə nisbətən məhərrəmlik mərasimi öz kütləviliyi ilə seçilməsə də, həmçinin şaxsey-vaxsey zamanı həyata keçirilən müxtəlif tədbirlərin səviyyəsi azalsa da, hələ də partiya orqanlarında müzakirə obyekti kimi qalırdı. Bunun isbatı olaraq AK(b) Partiyasının rəhbərlərindən olan M.Bağırovun maraqlı bir etirafını göstərə bilərik. İnqilabdan əvvəlki Azərbaycan ziyalılığının təcrübəsini tərifləyərək o, demişdir: "Yoldaşlar, əvvəllər gimnazistlər, müxtəlif məktəblərin tələbələri şiələr üçün müqəddəs sayılan "aşura" matəmlərində zəncir vurmaq, baş yarmaq kimi mərasimlərdə iştirak etmir, bunu gerilik əlaməti kimi qiymətləndirirdilər. İndi isə bütövlükdə dövlət quruluşunun dəyişməsinə, onun ateizm əsasları üzərində qurulmasına baxmayaraq, bəzi tələbələr hətta bu cür "təziyyə" mərasimlərinin təşkilatçıları olurlar. [95, 37]

Nəticə olaraq deyə bilərik ki, Bolşeviklər Azərbaycanda Sovet Quruluşunun birinci on illiyində məhərrəmliyə qarşı apardıqları mübarizəni onunla əlaqələndirirdilər ki, digər dini ayinlər kimi məhərrəmlik mərasimi də dinin yaşamasına xidmət edən amillərdən sayılır. Buna görə də bolşeviklər Sosializm şəraitində yaşanan "dini qalıqların" mövcud olması ilə heç cür razılaşa bilmədiklərindən bunu normadan kənara çıxmaq, habelə ictimai orqanizmin xəstəliyi kimi də qiymətləndirirdilər.

Bu baxımdan bolşeviklər Sovetləşmənin ilk günlərindən başlayaraq məhərrəmliyə qarşı müntəzəm olaraq kütləvi kampaniyalar həyata keçirmişdilər. Bu kampaniyalar isə yuxarıda qeyd etdiyimiz kimi bütün ideoloji təsir vasitələrindən habelə inzibati cəza metodlarından istifadə olunaraq keçirilmişdir.

30-cu illərin əvvəllərindən başlayaraq isə Azərbaycanda allahsızlıq, ateizim rəsmi ideologiya olduğundan din, o cümlədən də məhərrəmlik matəmi sovetləşmənin ilkin dövründə olduğu kimi rəhbərliyi narahat edən səbəb olmuşdur. Bu səbəbdən də Anti dini məsələlərdə məhərrəmliyə qarşı mübarizə də önəmli amillərdən sayılmışdır.

Ümumilikdə, hakim rejim məhərrəmliyin keçirilməsinə mane ola bilmədiyini gördükdə, heç olmazsa ona nəzarəti öz əlinə almağa cəhd etdi. Bunun üçün də Bakıdakı Ruhani idarəsi ilə əməkdaşlığa başladı. 1950-ci ildə Ruhani idarəsi, dövlət qeydiyyatından keçmiş bütün din adamlarının toplantısını çağırmış, Aşura günü adamların sinə vurmasına və dövlət qeydiyyatı olmayan cəmiyyətlərin xüsusi evlərdə mərasimlər keçirməsinə icazə verilməməyi haqqında onlara xəbərdarlıq etmişdir. Bu zaman İdarə hər iki hərəkətin islama zidd olduğunu bildirirdi. [96, 10-12] Lakin bütün bu cəhdlərə baxmayaraq hakim rejim məhərrəmlik mərasimlərinin kütləviliyini məhdudlaşdırmağa heç

zaman nail ola bilməmişdir. 1970-ci illərin əvvəllərinə aid olan məlumatlara görə, təkcə qeydiyyatdan keçmiş şiə məscidlərində məhərrəmlik mərasimlərində iştirak edənlərin sayı 100.000 (yüz min) nəfərdən çox idi. 1974-cü ildə Bakıdakı "Təzə Pir" məscidində keçirilən Aşura mərasimində iştirak edən 22.000 nəfərdən 13.000-i qadın idi. Həmin gün axşam baş verən hadisələr isə hakimiyyət orqanalrı üçün daha arzuolunmaz və gözlənilməz idi. 700 nəfər gənc oğlan və qız, 150 ərgənlik yaşına çatmış, 11 məktəb şagirdi məscidə gələrək mərasimə qatılmışdılar.

Bir sözlə, sovet hakimiyyət orqanlarının bütün canfəşanlığına baxmayaraq xalq nəinki məhərrəmlik mərasimini unutmuş, əksinə, onu daha canlı, intensiv və ardıcıl şəkildə keçirməklə inzibati təzyiqlərə cavab vermişdir. Sovet dövrü mətbuatında məhərrəmlik haqqında tənqidi ruhda yazılmış çoxlu sayda yazılar da məhərrəmliyin islam dininin məişətdə yaşayan ən fəal və aktiv ayin forması olduğunu təsdiqləyirdi. Böyük ölçüdə məhərrəmlik mərasimi sayəsində islam azərbaycanlılar arasında yaşamağa, yetmiş illik əsarətə baxmayaraq ayaqda durmağa nail olmuşdur.

**Ramazan və Qurban bayramlarına qarşı mübarizə**

Lazımi şərtlərlə səciyyələnən və müsəlmanların ildə bir ay boyunca tutduqları Ramazan orucu da bolşeviklərə görə digər dini bayramlar kimi mollaların uydurması sayılırdı. Şübhəsiz ki, orucluq da dini fakt idi, çünki, ona qarşı keçirilən kampaniya antidini xarakter daşıyırdı.

Kommunistlərə görə orucluq ibtidai cəmiyyətdəki "tabu" inancından qaynaqlanırdı, onların izahına görə oruc əslində "ibtidai cəmiyyətdə istehsalın və tədarüklərin məhdud olduğu dövrdə bir tədbir olaraq meydana çıxmış, daha sonra bir dini əmr halına gəlmişdir. İslam orucunda yolçuluğa çıxanlara oruc tutmamaq kimi bir istisnanın aid edilməsi ticarət burjuaziyası ideologiyasının təmsilçisi olan Məhəmmədin ticarət karvanının geri qalmamağı üçün istifadə etdiyi bir üsul olaraq ərəb ticarətinin mənfəətini qorumağa yönəlmiş bir tədbirdir. Məhəmməd Qiblə hadisəsində olduğu kimi orucu da yəhudilərdən almışdır və müsəlmanlar üçün əlverişli formaya salmışdır. Orucu İslam dinində tətbiq etməkdə əsas məqsədi Bədr döyüşündən sonra qurduğu dövlətinə iqtisadi resursları təmin etmək olmuşdur. Ramazan aylarında fitrə, zəkat kimi vergilər qoyaraq dövlətini iqtisadi baxımdan gücləndirir, onun maliyyə dayaqlarını möhkəmlədir və bununla da gələcək istila və fütuhatlara yol açırdı. Qısacası Məhəmmədin tətbiq etdiyi orucun göydən Allah tərəfindən buyurulduğunu iddia edən fikir həqiqətə uyğun deyildir. Əslində isə, Məhəmmədin vergi toplama, beytülmalı zənginləşdirmə və əsgərlərini qorumaq üçün istifadə etdiyi yollardan biri olmuş və beləliklə əsrlər boyunca inkişaf edərək indiki şəklini almışdır."[97,2-6]

Bolşevik inqilabından sonra, yəni Leninizm əsasları üzərində zəhmətkeşlərin qurduğu sinifsiz sosialist cəmiyyətində isə orucun sadəcə daxili və xarici düşmənlər ilə ruhanilərin əlində zəhmətkeşlərə qarşı bir silah olmaqdan başqa bir mənası qalmadığını qeyd edən təbliğatçılar bildirirdilər ki,

bir ay ərzində tutulan oruc əməkçilərin fiziki gücünü zəiflədərək hər cür iqtisadi fəaliyyətə zərər verir, fəhlə və kəndlilərin sosializm quruculuğu işində var qüvvələri ilə çalışmalarına mane olur, bir ay ərzində kifayət qədər qida almayan işçilərin orqanizmləri pozulur, belə bir vəziyyət isə istehsala zərər verməkdədir. [98, 7-10, 121].

Bu düşüncələr əsasında orucla mübarizə edən kommunistlər xalqı şüurlandırmaq və maarifləndirmək, hətta orucluq əleyhinə kampaniya aparmaq üçün tezislərdən də istifadə etmişdirlər. Bunlardan biri belədir: “oruc da bütün başqa dinlərin orucu kimi, zəhmətkeşlərin sinif mübarizəsi və sosializm cəmiyyəti qurmaq üçün apardıqları böyük işləri pozmaq üçün istifadə edilməkdədir” [99, 31].

Əslində isə orucluq hər bir müsəlmanın şəxsi işi olmaqla yanaşı, nəinki hər hansı bir ideologiyaya, hətta onun öz ailə üzvlərinə də heç bir mənfi təsir göstərmir. Ümumiyyətlə orucluğa qarşı mübarizə bir o qədər də asan məsələ deyildi. Əgər “şaxsey-vaxsey” ətrafın diqqətini özünə cəlb edən bir mərasim idisə, orucluq insanların daxili aləmləri ilə bağlı idi. Bu isə o deməkdir ki, oruc tutan bir kommunist, hətta partiya rəhbəri də özünü gizlədə bilərdi. Lakin bütün bunlara baxmayaraq bolşeviklər orucluğa qarşı mübarizəni də diqqətdən kənarda saxlamadılar, islam dininin başlıca şərtlərindən biri olan orucluğa qarşı cəbhə açmaqla eyni zamanda antidin kampaniyasını daha da genişləndirdilər.

Ramazana və başqa dini ənənəvi bayram mərasimlərinə qarşı təbliğat üsullarından biri də fabrik və zavodlarda partiya və komsomol komitələrində, klublarda və s. məruzələr edilməsi idi. Bu məruzələrdə orucluğun zərəri haqqında mühazirələr oxunurdu. Həmçinin orucluq əleyhinə qətnamələr qəbul olunurdu. Bu cür qətnamələrdən biri 1925-ci ildə Ramazan ayı ərəfəsində Bakının Lenin rayonunun fabrikində (indi Hacı Zeynalabdin Tağıyev adınadır) N.Nərimanovun xatirəsinə həsr olunmuş yığıncaqda səsə qoyulmuşdu. Bolşeviklər bu zaman belə bir faktdan xəbərsiz olmuş və ya bilərəkdən fikir verməmişdilər ki, N.Nərimanov inqilabdan əvvəl milli (burjuaziya) mətbuatında orucluğun insan sağlamlığına xeyirli olması barəsində məqalələr çap etdirmişdir. [100, 32].

Sovet hakimiyyət illərində isə mətbuat məsələyə tamam əks mövqedən yanaşaraq oruc tutmağın orqanizmə ziyanı haqqında məqalələr yazırdı. Məsələn, “Kommunist qəzetində” çap olunmuş “Oruc kimin üçündür?” başlıqlı məqalədə yazılırdı: “Əgər mollaların təsdiqlədikləri kimi, oruc sağlamlığa faydalıdırsa, onda çox vaxt yarıac-yarıtox vəziyyətdə yaşayan zəhmətkeş sinif öz sağlamlığı ilə fərqlənməli idi. Lakin xəstəxana çarpayılarının əksəriyyəti məhz ac və evsizlərlə dolu idi” [101, 46].

Ümumiyyətlə Ramazan ayında dövrü mətbuatda bu haqda bir çox məqalələr, felyetonlar, pamfletlər dərc olunur və bu zaman əsas məqsəd bundan ibarət olurdu ki, orucluq orqanizmi əldən salır və sağlamlığı məhv edir. Həmçinin qəzet və jurnallarda Ramazan ayının “tüfeylilər ayı” adlandırılmasına da tez-tez rast gəlinirdi.

Qurban bayramı da ilk gündən başlayaraq bolşevik təbliğatının əsas hədəfinə çevrilmişdir. Mətbuatda Qurban bayramı ilə bağlı yazılan yazılarda bolşeviklər guya bu bayramın "kasıb əhali üçün çox böyük çətinlik törətdiyi"ni iddia edirdilər. Məkkədə Qurban bayramı zamanı müsəlmanlar tərəfindən icra olunan ibadət mərasimləri məsxərəyə qoyulur və bununla da müsəlmanların müqəddəs hissləri təhqir edilərək onların dini ayinləri pislənilirdi. [102,121]

Qurban bayramının yaranması haqqında yazılan kitabçalarda bu bayramın hələ islam dinindən əvvəl mövcud olduğu iddia edilir, belə bir fikir irəli sürülürdü ki, "Qurban ibtidai və bütpərəstlik dövrlərindən qalmış və günümüzə qədər gəlib çıxaraq hələ də yerinə yetirilən, cəhalətin və mövhumatın qalıqlarından ibarət olan bir dini ayindir. İbtidai və vəhşi cəmiyyətlər ruhlara inanırdılar, ovda, əkinçilik və maldarlıqda məşğul olarkən bunlardan kömək istəyirdilər. Eyni zamanda həmin ruhların qəzəblərindən qorxardılar. Həm yardım ummaq, həm də şərlərindən uzaq olmaq, onları məmnun salmaq məqsədilə ibtidai insanlar qurbanlar kəsmişlər. Hətta insanın sünnət olması da qədimdən insandan qurban kəsmənin simvolik tətbiqlərindəndir". Bir sözlə, islamın digər bayram və mərasimləri kimi, Qurban bayramı da elmi ateizm təbliğatçıları tərəfindən müsəlman ruhanilərinin uydurması kimi qələmə verilmişdir [103, 2-10].

Ramazan və Qurban bayramına qarşı aparılan təbliğat kampaniyası o biri illərdə də davam etdirildi. Artıq bayramlarla mübarizə problemləri dövlət orqanlarında tez-tez müzakirə predmetinə çevrilmişdi. Məlum olmuşdur ki, təbliğat-təşviqat işləri öz nəticəsini vermir. Məsələn 1935-ci ilin məlumatlarına əsasən göstərilirdi ki, ASSR-in rayonlarında orucluğun qeyd olunması kəskin aşağı düşmüşdür, lakin həmin vaxt qeyd olunurdu ki, bəzi rayonlarda orucluğu qeyd etmənin miqdarı əvvəlki illərdən fərqlənmir [104, 31]. Hətta bəzi yerlərdə sovet aparatının əsas işçiləri və ayrıca olaraq kommunistlər orucluğun təşkilində və keçirilməsində iştirak edirdilər. Məsələn, Cəlilabad və Kürdəmirin yaşlı əhalisinin 70%-i Ramazan ayını oruc tutmaqla keçirmişdi, belə bir fakt da qeyd olunurdu ki, orucluğu keçirənlərin arasında hətta məktəblilər də az deyil. Ən başlıca cansıxıcı vəziyyət respublikanın şimal və cənub rayonlarında idi. Məlumatlara görə həmin bölgələrdə əhalinin 40-50%-i orucluğu keçirməkdə davam edirdi və bu səbəbdən də oruc tutanlar iş yerini və tədrisini buraxırdılar. Bayram vaxtı insanların işə çıxmaqdan boyun qaçırması halları da qeydə alınmışdı [105, 33].

Ümumiyyətlə bolşeviklər yazılarında: "din və dini ibadətlər geri qalmış yerlərdə yaşayanları maraqlandırır, bu kimi işlərlə geridə qalmış adamlar məşğuldurlar" fikrini əhaliyə çatdırmaq istəyirdilər. Bayrama gedənlərin yaşlılar olduğunu, bu kimi işlərin xüsusilə yaşlı nəslin nümayəndələri tərəfindən həyata keçirildiyini bildirmək istəyir, həmin adamları "keçmişin qalığı" sözləri ilə xarakterizə edirdilər. Bununla da bu cür ibadətlərə sosializmə inanmış müasir insanların deyil, keçmiş nəslin nümayəndələrinin getməyi qənaəti verilmək istənilmişdir.

Tədqiq olunan dövrdə dinlə heç bir əlaqəsi olmayan, bolşeviklər tərəfindən süni şəkildə dinliləşdirilmiş “Novruz” bayramının da dini bayramlar sırasına daxil edilərək rəsmi bayram kimi keçirilməsinə qarşı mübarizə aparılmışdır. Əslində isə hamıya yaxşı məlum idi ki, Novruz bayramının dinlə heç bir əlaqəsi yoxdur. Bu bayram etnoqrafik baxımdan həm Şərq, həm də Avropa tədqiqatçıları tərəfindən dərindən öyrənilmiş, onun heç bir dini mahiyyət daşımadığı hələ bolşevik inqilabından qabaq sübut olunmuşdur [106, 37].

Mətbuatda bolşeviklər “Novruz” bayramını “keçmişin qalığı”, “mövhumat bayramı”, “vəhşilik”, bütpərəstlik dövründən qalmış və sonradan cürbəcür donlar geyindirilərək “dinçiliyə və millətçiliyə xidmət etdirilmiş uydurma bayram” kimi göstərirdilər. İddia edilirdi ki, guya Novruz bayramı islam dinini müdafiə edir. Eyni zamanda mətbuatda Novruz bayramını guya şiə ruhaniləri tərəfindən müxtəlif uydurmalara müraciət edərək “bu bayramı şiələrin çox müqəddəs saydıqları Əlinin həyatı ilə əlaqələndirib, müsəlman tarixinə müraciət etməklə bu bayramı əsaslandırmaq istədikləri” yazılırdı. Bununla da “istismarçılıq xarakter daşıyaraq bizim daxili və xarici sinfi düşmənlərimiz tərəfindən və bunların quyruqları olan ruhanilər tərəfindən digər dini bayramlar kimi novruz bayramının da şiddətli surətdə mühafizə edildiyi” yazılaraq onunla mübarizə aparılması istənilirdi [107, 12-13, 115].

Şübhəsiz ki, kommunistlər Novruz bayramına öz ideologiyaları baxımından yanaşırdılar. Onlar dini bayramlar kimi bu bayramın da zəhmətkeşlərin istismar olunmasında sinfi düşmənin əlində silah rolunu daşıdığını və ruhanilərin zənginləşməsi üçün bir mənbə olduğunu iddia edərək, xalqın gözündən salmağa çalışmışdılar. Qeyd etmək lazımdır ki, digər dini ayin və mərasimlərə nisbətən Novruza hücum nisbətən zəif olsa da, bu bayram uzun müddət dini bayramlardan biri hesab edilmiş və keçirilməsinə qadağa qoyulmuşdur.

**Məscidlərin və digər ibadət yerlərinin inzibati üsullarla bağlanması prosesi**

Bolşeviklərin dinə qarşı mübarizəsində məscidlərin bağlanması prosesi onların qarşısında duran vacib vəzifələrdən biri idi. Kommunistlərin məscidlər başda olmaq üzrə dini məkanlara qarşı mübarizəsinin, onların əqidəsinə görə, guya haqlı səbəbləri vardır. SSRİ Allahsızlar Birliyinin sədri E.Yaroslavskiyə görə “hər şeydən əvvəl dini təşkilatlar olan məscidlər, mədrəsələr, türbələr memarı tərz və funksiyaları baxımından uşaqlarda dini hiss və düşüncəsinin oyanmasında vacib rol oynayırdılar. Bunun yanında məscidlərdə oxunan beş vaxt əzan uşaqlara dini baxımdan təsir etdiyi kimi inqilabçı xalqa da dini xatırladır, onların keçmişdən qopmalarını və Sovet dövlətinin ideologiyasını tam anlamı ilə qəbul etmələrini çətinləşdirirdi. Üstəlik dindarlar məscidlər, mədrəsələr və türbələr mövcud olduğu zaman onlara yardım edirdilər ki, bu da öz növbəsində iqtisadiyyatın zəifləməsinə gətirib çıxarırdı” [108, 5].

İnqilabdan əvvəl Azərbaycanda olan məscidlərin sayı təxmini məlumata görə 3 minə qədər idi. 1927-ci ilin başlanğıcına qədər ölkədə 1700 qədər məscid

qalmışdı ki, onlardan da 969–u şiə və 700-ü sünni məscidləri təşkil edirdilər [109, 45]. 1929-cu ildə isə bu rəqəmlərin sayında böyük ölçüdə azalma olmuş, nəticədə məscidlərin sayı azalaraq 400-ə çatmışdır. 1933-cü ilə kimi respublikada cəmi 17 məscid qalmışdır ki, onların da 11-i şiə, 2-si sünni və 4-ü qarışıq (şiələr və sünnilər onlarda növbə ilə namaz qılırdılar) məscidlər idi. [110,87-88;111,67-68]

Azərbaycanda məscidlərə qarşı 1921-1922-ci illərdə başlanmış hücum sonrakı illərdə daha da gücləndi. Bolşeviklər Azərbaycanda məscidləri aradan qaldırmaq üçün müxtəlif metodlardan istifadə edirdilər. Birinci olaraq məscidlərin dağıdılması həyata keçirilirdi. Dağıdılan məscidlərin materiallarından istifadə hallarına da bir çox hallarda rast gəlinirdi. Məsələn 1918-ci il Şamaxı şəhərində erməni-bolşevik talanları zamanı 16 məscidin yararsız hala düşməsi bəhanəsi ilə məscidlərin 13-nü söküb daşlarından teatr binasının tikintisində istifadə etmişdilər [112, 63].

Bolşeviklər bu cür metodlardan istifadə edərək xalqın narazılığının qarşısını almaq üçün müxtəlif şüarlar irəli sürürdülər, iddia edirdilər ki, bu tipli fəaliyyətlərinə səbəb odur ki, “məktəb inşa etmək üçün materiala, daşa, ağaca ehtiyac vardır” [113, 55].

1924-cü ildə RK(b) P XIII qurultayı yerli hökumət orqanlarının ölkədə məscid, kilsə, sinaqoq, və başqa ibadət evlərinin inzibati yolla bağlanılmasına qarşı çıxmasından sonra, [114,70] yerli mətbuatda 1924-cü ilin sonu, 1925-ci ilin əvvəllərindən yazılırdı ki, “istifadə olunmayan” məscidlərin məktəb binasına, klub, teatr, kitabxana və s. çevrilməsi haqqında yazılar dərc olunmağa başlandı. Bu işlərin könülü olaraq əhalinin arzusu ilə həyata keçirildiyi qeyd olunurdu [115, 65].

Dinə qarşı kütləvi hücum dövrünün yaxınlaşması ilə əlaqədar mətbuat məscidləri təhqiramiz “bayquş yuvası”, “cəhalətpərəstliyin daşıyıcıları”, “faydasız, lüzumsuz evlər” kimi sözlərlə adlandırır, bu yolla məscidləri əhalinin gözündən salmağa cəhd edirdilər. Məscidlərin bağlanması prosesində fəal olanların böyük hissəsini gənclər və əsas etibarilə komsomolçular, “Allahsız”lar təşkil edirdilər. Əgər fəal gənclərdən kimsə məscidləri dağıtmağa tərəddüd edirdisə, belələri “satqın” kimi ifşa olunurdu.[116,116]

Məscidlərin əhalidən alınması prosesi 1928-29-cu illərdə kütləvi şəkil almağa başladı. Bu tarixdə Bakıdakı Şirvanşahlar sarayının mövcud olan iki məscidi “Dinsizlik muzeyi” halına gətirilmişdir [117, 37]. Quba qəzasından verilən xəbərdə deyilirdi ki, 1928-ci ilin dekabr ayının 15-dən 1929-cu il yanvarın 6-dək 22 gun ərzində 18 məscid anbara və mədəni-maarif idarələrinin binasına çevrilmişdir. Göyçaydan alınmış teleqramda təntənəli surətdə qeyd olunur ki, komsomolların təşəbbüsü ilə Ağdaş rayonunda 36 məscid mədəni-maarif idarəsinə çevrilmişdir.[118,18] Görülən bu işlərin nəticəsində qeyd olunurdu ki, 1929-cu il fevralın 12-ə kimi respublikanın 13 qəzasında guya əhalinin könülü arzusuna əsaslanmaq pərdəsi altında 317 məscid alınıb mədəni-maarif müəssisələrinə çevrilmişdir [119, 117].

p-ISSN 2616-6879
e-ISSN 2617-751X

Bu cür məlumatlar sayəsində mətbuat məscidlərin bağlanması kampaniyasını aşağıdakı şəkildə işıqlandırırdı. Mətbuatda deyilir ki, guya zəhmətkeşlər müraciət edərək bildirirlər ki, “Bizə nə Allah lazımdır, nə də onun evi”, “Əməkçilərə məscid deyil, mədəniyyət ocaqları lazımdır” və s. başlıqlarla “zəhmətkeşlərin” məscidləri bağlamaq haqqında qərarları çap olunurdu [120; 107].

Lakin bolşevik mətbuatından fərqli olaraq Azərbaycan K(b)P və Bakı komitəsinin 1929-cü il aprelin 9-da keçirdiyi birgə plenumu dini qalıqlara qarşı mübarizənin yaxın vəzifələri haqqında məsələnin müzakirəsində məlum olmuşdur ki, son seçki kampaniyası ərzində 400-ə qədər məscidin alınması inzibati tədbirlərin nəticəsində baş tutmuşdur [121, 8]. Bu tədbirlərin fonunda Ağdam, Salyan, Ağdaş, Lənkəran və Naxçıvanda məscidlərin bağlanmasına qarşı ciddi narazılıqlar qeydə alınmışdır. Plenum yerlərdəki narazılıqlarla bağlı bildirirdi ki, məscidlərin bağlanması türk əhalisi tərəfindən yaxşı qarşılanmayıb, bunun üçün əvvəlcədən məqsədyönlü və hərtərəfli təbliğat aparmağın vacibliyini qeyd edərək, komsomolçular tərəfindən hücum edilərək mollaların döyülməsi, məscid və kilsələr üzərinə hücum edilməsi, məscidə gedənlərin təhqir edilməsi və sairə bu tipli yol verdikləri hərəkətlər pislənilmişdir [122, 9]. Eyni zamanda rəhbərlik tərəfindən xalqın ümumi narazılığını aradan qaldırmaq üçün Azərbaycan MİK-in sədri S.M.Əfəndiyev bolşevik təbliğatından məharətlə istifadə edərək xalq təhsil komissarı M.Quliyevin “mədəni inqilabı” həyata keçirmək metodundan narazı olduğunu bildirərək, məscidlərin zorla alınmasına qarşı çıxış edib deyirdi: “Dinə qarşı ölçüb-biçilmiş və normal mübarizə aparmaq əvəzinə bu iş məscidlərin bağlanması yolu ilə aparılır. Bir vaxtlar kəndlərdə, hətta bu işdə sosialist yarışı keçirilirdi ki, kim daha çox məscid bağlayacaq” [123, 117].

Məhvedici tənqidlə o, “mədəni inqilab” metodlarını tənqid edərək, M.Quliyevi bu işdə günahkar hesab etməklə məsələnin əsil siyasi mahiyyətini gizlətmişdi. Hansı ki, Azərbaycan K(b) PMK rəyasət heyətinin 1928-ci ilin dekabr ayında “məscidlərin kəndlilərin mədəni ehtiyacı üçün verilməsi haqqında” qərarı bu işin bir nəfər tərəfindən aparılmadığı, ümumilikdə kommunistlərin siyasi xəttinin tərkib hisəsinin olduğunun göstəricisi idi [124, 47-50]. Digər tərəfdən isə, yuxarıda adıçəkilən qərar nəticəsində təxminən iki ay müddətində əhalinin, guya ki, könülü arzusuna görə, 13 qəzada 327 məscid, mədrəsə və kilsənin alınıb mədəni-maarif müəssisəsinə çevrilməsi əhalisinin böyük əksəriyyətinin savadsız və eyni zamanda dindar olduğu Azərbaycan kəndi üçün ağlasığmaz bir iş idi [125, 117].

Məscidlərin bağlanması üzrə kampaniyanın ikinci mərhələsi 30 cu-illərin ortalarından etibarən daha böyük sürətlə və ardıcıl şəkildə həyata keçirilməyə başladı. 1935-ci ildən başlayaraq AK(b)P MK-nın birinci katibi olan M.C.Bağırov qeyd edir ki, məscidlər və təkkiyələr əksinqilabın sovet hökumətinə qarşı düşmən elementlərinə çevrilmişdir. Zəhmətkeşlər arasında irticaçı təsir göstərən bazaya çevrilir və bununla bizim respublikada mədəni

inqilabın yolunda maneə təşkil edir [126, 32]. M.C.Bağırov bunu deməklə məscidlərin bağlanmasına yönələn sonuncu həlledici kampaniyanın başlanmasına icazə verir, belə demək olarsa, respublikada məscidlərin bütün mümkün yollarla sıradan çıxarılmasına öz xeyir duasını verirdi.

1935-ci ildə Bakının əsas iri məscidlərdən olan “Təzə Pir”, “Məmmədli”, “Hacı baba” və “Qasım bəy” məscidlərinin kitabxanaya, uşaq bağçalarına və körpələr evinə verilməsi haqda qərar qəbul olunmuşdur [127, 65]. Əyalətlərdəki məscidlərin aqibəti də bu cür olmuşdur. Gəncədə XVI əsrin memarlıq əsərlərindən olan Şah Abbas məscidi 1935-ci ildə bağlanmış, üç il sonra din ilə mübarizə muzeyinə çevrilmişdir. Şəkinin 15 məscidi klub və məktəb halına gətirilmişdir [128, 35].

Bu tarixdən etibarən Dağlıq Qarabağ, Naxçıvan muxtar respublikası daxil olmaqla 45 administrativ ərazi vahidlərində bolşeviklər tərəfindən 1348 məscid alınmışdır.[129,34] Əvvəlki illərdən fərqli olmayaraq zor gücünə alınan məscidlərin anbarlara, mədəni-maarif müəssisələrinə çevrilməsi haqqında yuxarıdan qərarlar verilmişdir. Bunun da xalqın “istək” və “xahişi” ilə həyata keçirildiyi bildirilmişdir.

Lakin hakimiyyətin məscidlər üzərinə hücumu öz növbəsində əhali arasında ciddi müqavimətə və iğtişaşlara səbəb olmuşdur. 1935-ci ildə bağlanmış olan Kərbəlayi Abdul Hüseyn məscidinin əhalinin təsiri ilə 1936-cı ildə açılmasına qısa bir müddət ərzində icazə verilmişdi [130, 66].

Eyni zamanda 1937-ci ildə A(b)KP MK iclaslarının birində M.Bağırov məharətlə çıxış edərək qeyd etmişdir ki, “məscidlərin inzibati tədbirlər nəticəsində alınması düzgün deyildir. Elə etmək lazımdır ki, kütlə öz razılığı ilə məscidlərin bağlanmasını tələb etsin.” Həmçinin Bağırov tələb etmişdir ki, məscidlərin dağıdılması probleminə ölçüb-biçilmiş şəkildə yanaşmaq lazımdır [131, 25].

Rəhbər şəxslər tərəfindən bu tipli çıxışların edilməsi bir daha onu sübut edir ki, məscidlər xalqın arzu və istəkləri ilə bağlanmamış, bağlanan məscidlərdə isə bu tədbirlər inzibati yollarla həyata keçirilmişdir.

Məscidlərin bağlanılması prosesi SSRİ-də ikinci dünya müharibəsi başlayana qədər sürətlə davam etmişdir. Uzun illər ərzində ardıcıl surətdə davam etdirilmiş bu kampaniya nəticəsində 6 may 1942-ci ildə “Soviet War News” jurnalının yazdığına görə SSRİ-də sadəcə 1.312 məscid fəaliyyət göstərmişdir [132, 180].

Lakin 22 iyun 1941-cı ildə Almaniyanın Rusiyaya hücumu ilə başlanan müharibə Sovetlər üçün böyük bir təhlükə halını aldı. Stalinin “Vətənin müdafiəsi uğrunda” əmri ilə əhalinin dini hisslərindən istifadə edilməyə başlandı. Bilavasitə dinə qarşı təqib müvəqqəti olaraq dayandırıldı və hətta dini cəmiyyətlər üçün hökumət tərəfindən bəzi asanlaşdırıcı müddəalar elan edildi. Beləliklə, müsəlmanlara qarşı təzyiqlər azaldı və onların dini təşkilatları yenidən fəaliyyət göstərmək imkanları əldə etdilər. Lakin bu fəaliyyət sovet hökumətinin təlimatları və nəzarəti altında aparılırdı. Belə ki, 1944-cü il may

ayında SSRİ hökuməti tərəfindən dini etiqadlar üzrə dörd müsəlman ruhani təşkilat qurulmuşdur. Bu dini idarələr Sovet hökumətinin ciddi nəzarəti altında fəaliyyət göstərirdilər [133, 76].

Azərbaycanın daxil olduğu Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsi SSRİ Ali Soveti Rəyasət Heyətinin 14 aprel 1944-cü il tarixli 17 nömrəli qərarı ilə təşkil edilmişdir. İdarənin sədri şeyxülislam dini rütbəsi adı altında Axund Ağa Əlizadə olmuşdur [134, 76].

Artıq 1944-cü il 14 noyabr tarixli “Məscidlərin bərpası haqqında” 19 Noyabr tarixli “Məscidlərin açılması qaydası haqqında” və 1946-cı il 28 yanvar tarixli “Dini cəmiyyətlərin ibadət evləri haqqında XKŞ-ın [1] qərarları” bəzi məscidlərin əhaliyə qaytarılmasına imkan verdi. Artıq 1947-ci ilin yanvarında SSRİ-nin bütün respublikalarına və regionlarına DİŞ-in [2] “İbadətxanaların açılması haqqında işlərin rəsmiləşdirilməsi barəsində” məktubu göndərildi [135,144].

DİŞ-in naziri-xarici işlər komissarına bağlı olan Polyanski öz açıqlamasında artıq SSRİ-də 3000-dən artıq məscidin mövcud olduğunu və fəaliyyət göstərdiyini qeyd edir [136,183].

Azərbaycana gəlincə isə əhalinin inamını qazanmaq üçün, 1946-cı ildə respublika ərazisində rəsmi olaraq 11 məscidin fəaliyyət göstərməsinə icazə verilmişdi. Bu Bakı, Gəncə, Zaqatala, Şəki, Naxçıvan, Quba, Salyan, Göyçay, Sabirabad və həmçinin Maştağa, Qum, Astarada bir məscid fəaliyyət göstərirdi [137, 29].

**Dini təhsil ocaqlarının və mədrəsələrin bağlanması prosesi**

Dinə qarşı mübarizəni davam etdirən Sovet hökumətinin liderləri nəinki məscidləri bağlamaq, dini bayram və mərasimlərin keçirilməsini məhdudlaşdırmaqla kifayətləndilər, əksinə, onlar dinin əsaslarının sarsıdılması uğrunda fəaliyyətlərini davam etdirdilər. Onlar yaxşı başa düşürdülər ki, dini təhsil davam etdiyi müddətdə bu mübarizə də effektsiz olacaq, qarşıya qoyulan vəzifənin yerinə yetirilməsi baş tutmayacaqdır. Din xadimlərinin bir sinif olaraq kökünü kəsməzdən daha əvvəl yeni dini təhsilli gənclərin yetişməsinə qarşı mübarizə aparmaq lazım idi. Ona görə də bütün bu proseslər eyni zamanda baş vermiş, bolşeviklərin dinə qarşı apardıqları mübarizə müxtəlif cəbhələrdə davam etmişdir. Bu baxımdan onların dini mədrəsələri bağlamalarını araşdırarkən islama qarşı mübarizədə istifadə etdikləri metodları daha aydın şəkildə görmək olar. Məscidlərin bağlanması ilə yanaşı Sovet hökuməti Azərbaycanda dini məktəblərin və digər dini tərbiyə ocaqlarının kökünün kəsilməsi uğrunda ciddi mübarizə aparmışdır. İnqilabdan əvvəl Azərbaycanda 786 dini məktəb və mədrəsə qeydiyyata alınmışdır [138, 19].

Bu istiqamətdə ilk addım hələ 1918-ci ildə yanvar ayının 21-də Xalq Maarif komissarlığının sərəncamında olan xüsusi tədris müəssisələrində dini

[1] Xalq Komissarları Şurası
[2] Dini İşlər Şurası

şəriətin tədrisi qadağan olunmuş və dini fənlərin ümumtəhsil məktəblərində tədrisi 1920-ci ildə Sovet hökumətinin ilk dekretləri tərəfindən ləğv edilmişdir. Lakin bu qərar axırıncı deyildi, bu məsələnin müzakirəsi 1928-ci ilə qədər davam etdi.

1925-ci ildə "Müsəlman dininə etiqad edən Şərq xalqları arasında müsəlman dininin tədrisi haqqında" ÜİMİK Rəyasət heyətinin iyun 1924-cü il tarixli təlimatı işə salındı. Bu təlimata uyğun olaraq "Şərq xalqlarının bəzi qruplarının mədəni cəhətdən geri qalmaları nəzərə alınaraq" məscidlərdə müsəlman şəriəti dərslərinin tədrisinə icazə verildi [139, 283]. Təlimatda xüsusi olaraq qeyd kimi göstərilirdi ki, din ancaq məscidlərdə tədris olunmalıdır, sovet məktəblərində bu qadağan olunurdu. Lakin bu məsələ Azərbaycan K(b)P MK rəyasət heyətinin 1925-ci il 31 oktyabr tarixli yığıncağının müzakirə mövzusu olmuş və bu müzakirənin nəticəsində RK(b)P MK-dan xahiş edilmişdir ki, yerli əhali tərəfindən buna maraq olmadığına görə bu qərarı Azərbaycan ərazisində yaymasın [140, 283]. Göründüyü kimi Sovet Azərbaycanında bolşeviklərin dini təhsilə münasibətindəki tərəddüdü kommunist hakimiyyətinin din əleyhinə ümumi xəttini əks etdirirdi.

Əslində isə bu mərkəzin tam yalanı idi. Hətta, sonradan belə hadisələr də baş vermişdir ki, bunun nəticəsində əhali tərəfindən dini tədrisə icazə verilməsi haqqında məsələ qaldırılmışdır.

Ən əsası odur ki, Azərbaycan rəhbərliyinin gözdən pərdə asmasına baxmayaraq Respublikanın ümumtəhsil məktəblərinin şagirdləri hissə-hissə dini biliklər almaqda davam edirdi. Bu proses cürbəcür yollarla baş verirdi. N.Nərimanovun sözlərinə görə din haqqında yeni qanunların həyata keçirilməsindən sonra ağır maddi vəziyyətə düçar olan mollalar müəllimliklə məşğul olmağa məcbur oldu və sovetləşmədən iki il sonra bir çox mollalar müəllimə çevrildilər [141, 40]. Bu da antidini kampaniyanın həyata keçirilməsinə əngəl idi. Belə faktlara rast gəlinmişdir ki, Azərbaycanda xalq təhsilinin vəziyyəti haqqında maarif xalq komissarının 1925-26-cı tədris illərindəki məruzəsində deyilirdi ki, müəllimlərin 76%-dən çoxu, yəni Azərbaycan müəllimlərinin ¾ hissəsi aşağı dini təhsilə malik idi [142, 21-23].

Lakin bu uzun çəkmədi. Təmizləmə işlərinin aparılması zamanı məsələn təkcə Şamaxıda 17 müəllim öz işindən uzaqlaşdırıldı [143, 41]. Onların işdən uzaqlaşdırılmasının səbəbi molla olmaları idi. Elə mollalar var idi ki, onlar öz fəaliyyətlərini qeyri-leqal vəziyyətdə davam etdirirdilər. Bundan da bolşevik təbliğatçıları mollaları nüfuzdan salmaq üçün istifadə edirdilər.

Mətbuat yazırdı ki, ruhanilər baş qaldırır, mollalar kadrların hazırlanması üçün gizli və açıq-açığına mədrəsələr açırdılar və oraya hətta ziyalıları cəlb edirdilər, işçiləri, fəhlə fakültəsinin tələbələrini, müəllimləri, gəncləri yay tətillərində bir yerə yığıb Allah qanunlarından dərs deyirdilər. Hətta Quranın latın əlifbasında olması qarşısında da çətinlik çəkmirdilər [144, 40; 145, 45; 99].

Habelə yeni metodlardan istifadə edərək ruhanilər deyirdilər ki, "Allahsızlar öz arvadlarını klublara aparırlarsa bəs onda biz nəyə görə öz arvadlarımızı məscidlərə aparmayaq" [146, 10-15]. İş o yerə gəlib çatmışdır ki, sosializmin quruculuğunun nailiyyətlərindən biri olan elektrik işığının yandığı yerlərdə ruhanilər məscidləri müxtəlif rəngli lampalarla bəzəyərək "Mövlud-Nəbi" bayramını təm-təraqla keçirirdilər [147, 69]. Hətta mətbuatda belə faktlara rast gəlinirdi ki, müəllimlər öz dərslərindən əlavə Allah qanunlarından istifadə edirdilər [148, 46].

Həmçinin öz rituallarını bir tərəfə ataraq Bakıda, Gəncədə və s. yerlərdə sünni-şiə ruhaniləri məscidlərdə dini mövqedən birləşməyə təşəbbüs göstərən moizələr söyləmişdilər [149, 95-97]. Mətbuatın verdiyi məlumata görə nikah mərasimi həyata keçirilirdi, xüms zəkat 10/1 vergisi dövlət vergisindən fərqli olaraq çox yaxşı yığılırdı. Və sonda müsəlman ruhaniliyi, yeni dövrə uyğunlaşaraq dəqiq elmləri, fizikanı hətta marksizmi öyrənirdilər [150, 45]. Bütün bunlarda ruhanilərin məqsədi bu dövrdə partiyanın apardığı mübarizəyə müqavimət göstərmək, öz mövqelərini kütlələr arasında qoruyub saxlamaq və dini fikirləri əhali arasında ayaqda tuta bilmək idi.

Sovet hakimiyyətinin ilk dövrlərində məktəb ədəbiyyatı da bu və ya digər şəkildə lazımi qədər dini biliklərin alınmasına kömək edirdi, məktəb proqramları maarif xalq komissarlığı tərəfindən 1923-cü ildə hazırlanmışdır ki, bu da ən azı 1927-28-ci tədris illərinə qədər istifadə olunurdu.

Bu kitablarda Allahı tərifləmək təfsir olunurdu. A.Şaiqin ədəbiyyat dərsliyində belə bir sözlər yazılmışdır: "Ateizm ruhlu mədəniyyət bəşəriyyətə bəla-bədbəxtlikdir. Orada həmçinin belə bir ifadələr də yerləşirdi. "Bismillah", "Allah ədalətlidir", "O, düzgünü və ədaləti sevir". Bu dərsliklərlə sovet məktəblərində 1927-ci ilə qədər istifadə edilmişdir [151, 19]. Bu hal o vaxta qədər davam etmişdir ki, respublika partiya təşkilatının rəhbərlərindən biri olan Ə.Qarayev bunu 16-cı partiya iclasında tənqid etmiş və yalnız bundan sonra dərsliklər dəyişdirilmişdir [152, 48].

Bolşeviklər islama və ruhaniliyə ciddi zərbə vurmaq məqsədilə köhnə əlifbanı Azərbaycanda "mədəni inqilaba" mane olan əsas amillərdən biri hesab edirdilər və bu məqsədlə də ərəb əlifbasını latın əlifbası ilə əvəz etmək qərara alındı.

Yeni əlifbaya keçmək üçün 1922-ci ilin may ayında S.Ağamalıoğlunun rəhbərliyi ilə, xüsusi komissiya yaradılaraq yeni əlifba komitəsi təşkil olundu. Bu komissiya 1926-cı ildə Ümumittifaq statusu aldı. 1929-cu il 1 yanvar tarixindən etibarən Az.MİK-nin qərarı ilə yeni əlifba Azərbaycanda rəsmi olaraq qəbul edildi [153, 138]. Ə.Qarayev bu haqda yazırdı: "Bu tarixdən etibarən köhnə əlifba tarixin zibil yeşiklərinə atılır. Bu gün böyük mədəni inqilab bayramıdır. Belə böyük bayramın və şərəfli bir günün həqiqi sahibləri Azərbaycan əməkçiləridir" [154, 27].

Ərəb əlifbasının latın əlifbası ilə əvəz olunmasının məqsədi, ilk növbədə Sovet İttifaqında yaşayan müsəlman əhalisini Şərqdəki həmməzhəblərindən

ayırmaq istəyi idi [155, 139]. Eyni zamanda Sovetlər İttifaqında yaşayan müsəlman əhalini tək bir mədəniyyət, yəni Sovetlər mədəniyyəti içində yoğurmaq və birləşdirmək məqsədi də burada ortaya atılmışdı. Onlara görə bu birləşdirmə və bütünləşdirməni saxlamaq üsullarından biri də əlifbanın dəyişdirilməsi idi.

Əlifbanın dəyişdirilməsinin sosial-mədəni və siyasi ölçülərini bir tərəfə qoyaraq dini baxımdan müsəlmanlara təsirinə baxsaq, Sovetlərin bunu din ilə mübarizənin bir ünsürü olaraq dəyişdirdiyini göstərən faktları görərik. Belə ki, "Allahsız" jurnalında 1932-ci ildə Qur imzası ilə nəşr olunan "Yeni əlifba allahsızlar əlifbasıdır" adlı məqalədə əlifba dəyişikliyini dinlə mübarizə baxımından önəmli olduğunu qeyd edir. Müəllif məqalədə bolşevik inqilabından əvvəl nəşr olunan kitabların əksəriyyətinin dini mövzuda olduğunu və xalqı dinə çağırdığını qeyd edərək yazır ki, inqilaba qədər nəşr olunan kitabların hamısı din ruhunu gücləndirməyə, hətta uşaqların düşüncəsinə zidd olan xurafatı yaymaqla xalqın zəhərlənməsinə və mədəniyyətdən geridə qalmasına xidmət edir. Bizim bu əlifbanı dəyişməklə yeni nəsil ərəb əlifbasını bilmədiyindən quranı və şəriət kitablarını da oxumaqdan məhrum oldu. Bundan başqa savadsızlığını ləğv edən yaşlı kişilər və qadınların da müqəddəs kitabları oxumaqdan əlləri çəkildi. Beləliklə, Sovet hakimiyyəti qurulduqdan sonra rəsmi kitabxanalar, klublar və qiraət yerlərində olan əski kitablar məhv edilərək yandırıldı, onların əvəzinə proletariat ədəbiyyatı meydana gətirildi [156, 9].

Artıq 1928-1929-cu illərdə hakimiyyət istər məscidlər yanındakı məktəblərdə, istərsə də evlərdə dini təlimin tam qadağan siyasətinə keçdi. Belə ki, dini məktəblərin bağlanması haqqında Az.SSR Xalq maarif komissarlığının 4 sentyabr 1928-ci il tarixli xüsusi təlimatı komissarlığın bütün şöbələrinə "Dini şəriətin təlimi ilə mübarizə haqqında" məktubu göndərilir. Məktubda qeyd olunur ki, "dini şəriətin təlimi məktəbin kilsədən ayrılmasına dair sovet qanunvericiliyinin əsas prinsiplərinə ziddir". Bununla əlaqədar bir sıra tədbirlərin həyata keçirilməsi təklif olunur, mövcud dini məktəbləri üzə çıxarmaq və onların dərhal bağlanması üçün lazımi tədbirlər görmək, o cümlədən aşkar olunan dini məktəbləri Cinayət məcəlləsinin 157-ci maddəsi ilə məsuliyyətə cəlb etmək tövsiyə olunmuşdur [157, 284].

Göründüyü kimi, Xalq Maarif komissarlığı dini məktəblərin ləğv olunması işində başlıca olaraq cəza orqanlarına ümid bəsləyərək, inandırma və təşviqat metodlarından yayınırdılar.

Mədrəsələrə ümumi hücumdan sonra partiya rəhbərliyi bu məsələnin tamamilə həll olunmasını məruzə edirdisə, 1933-cü ildə yeni bir yoxlanış zamanı Zaqatala və Balakəndə yerli dini xadimlər tərəfindən bir neçə mədrəsənin təşkili faktı aşkar edilmişdir. O cümlədən Bakı məscidlərindən "Təzə Pirdə", "Hacı Pirverdi", "Hacı Cabbar", "Şirvanlılar", və "Çənbərəkənd" məscidləri həftənin ayrı-ayrı günlərində şəhər əhalisinin dini məsləhət məntəqəsi olmuşdur.[158,68]

Belə bir faktı da qeyd etmək lazımdır ki, 1935-ci ildə bütün şagirdlərə rəsmi olaraq nəinki dini tədrislərə, hətta məscidlərə getmək rəsmi qadağan olunmuşdur.

**Nəticə**

Azərbaycanda bolşeviklərin hakimiyyətə gəlməsindən sonra ictimai-siyasi həyatın bütün sahələrində olduğu kimi, din sahəsində də böyük dəyişikliklər baş verdi. Mövhumatla, cəhalətlə mübarizə adı altında insanların dini etiqad, vicdan azadlıqlarının əllərindən alınması, ibadət yerlərinin, müqəddəs məkanların inzibati tədbirlərlə bağlanması Azərbaycan xalqının həyatında ciddi və bəzi hallarda faciəli izlər buraxdı. Din xadimlərinin repressiyalara məruz qalması, dini təhsil müəssisələrinin qadağan olunması, elmi-ateizm təbliğatı nəticəsində insanlar din haqqında məlumat almaq imkanından məhrum oldular.

Sovet hakimiyyətinin ilk illərində həm Moskvadakı, həm də yerli liderlər islam dininə, əhalinin dini inanclarına hörmətlə yanaşır, sonralar "dini liberalizm" adlandırılacaq olan siyasət yürüdürdülər. Lakin, onların hakimiyyətləri möhkəmləndikcə, dindarların təhqir edilməsindən başlamış "Allah yoxdur" tipli düşüncəsiz şüarlar irəli sürməyə qədər müxtəlif antidin tədbirlərinə əl atmış, kütlələri dini inamlardan ayırmağa, ateist sovet cəmiyyəti qurmaq üçün çalışmağa başlamışdılar. 1924-cü ildə antidin təbliğatına start verildikdən sonra dövlət və partiya orqanları bütün cəbhələrdə dinə qarşı mübarizəyə başladılar.

Din əleyhinə mübarizənin ilk toxumlarını 1922-ci ildə yaradılmış "Bezbojnik" qəzeti qoydu. Daha sonra, 1925-ci ildə "Ümumittifaq Allahsızlar ittifaqı"nın əsası qoyuldu. Təşkilat yarandığı zaman rus əhalisi üçün nəzərdə tutulmuşdur, lakin zaman keçdikcə islamın hakim olduğu torpaqlara da yayıldı və islamla mübarizədə başlıca quruma çevrildi. Bu təşkilatın məramı və məqsədləri qəti müəyyənləşərək 1929-cu ildə "Mübariz Allahsızlar ittifaqı" adı altında öz qarşısına Kommunist Partiyasının ölkədə dinə qarşı mübarizə vəzifəsini qoydu. Sovet bolşeviklərinin rəhbərliyi altında din əleyhinə mübarizə cəbhəsinin kütləvi bir dəstəsi kimi təşkilat dinə qarşı mübarizəni sosializmin düşmənlərinə qarşı mübarizə şüarı altında apararaq fəaliyyətə başladı. Lakin, sovet dövrü tədqiqatçılarının iddia etmələrinə baxmayaraq bu təşkilatın fəaliyyəti gözlənilən effekti vermədi. Belə ki, 1929-cu ildə Azərbaycan Kommunist (b) Partiyasının Mərkəzi Komitəsi apardığı ətraflı tədqiqatdan sonra etiraf etmişdi ki, 1927-ci ildən başlayaraq Azərbaycanda "Allahsızlar İttifaqı"nın fəaliyyəti nəzərəçarpacaq dərəcədə zəifləmişdir. Sonralar isə yalan və şişirdilmiş məlumatlar elə Allahsızlar İttifaqının öz rəhbərləri tərəfindən üzə çıxarılmış, bununla Azərbaycanda islama qarşı mübarizənin baş tutmadığı dolayısı ilə də olsa etiraf edilmişdir. Nəzərə alsaq ki, bu cəmiyyət azərbaycanlılar üçün ağır mənəvi təhqir sayılırdı, bu təşkilatın böyük miqdarda tərəfdaş yığmaq arzusu ilə aparılan təbliğatın qabaqcadan məğlubiyyətə düçar

olmasını görmək olardı. Tarixən dini və milli köklərinə bağlılıqları ilə seçilən azərbaycanlılar arasında bu tipli bir təşkilatın uğur qazanması son dərəcə çətin idi. Həmçinin bu dövrdə məşhur “Molla Nəsrəddin” jurnalının da adı dəyişdirilərək “Allahsız” adı ilə əvəz etmiş, bununla da məişətdən dini tamamilə silib atacaqlarına ümid etmişdilər.

Sovet hakimiyyətinin ilk illərindən başlayaraq bolşeviklər dini bayram və mərasimlərə qarşı ciddi mübarizəyə başlamış, xalqın şüurunda, gündəlik həyatında dinin yaşamasının praktik vasitəsi olaraq gördükləri bayram və mərasimləri ləğv etməyə çalışmışlar. Bu məqsədlə həm inzibati tədbirlərdən, həm də təbliğat və təşviqat vasitələrindən geniş istifadə edilmişdir. Azərbaycanda din əleyhinə aparılan siyasətin tərkib hissəsi olan məhərrəmliyə qarşı mübarizə öz dramatikliyi ilə diqqəti cəlb edirdi. Bu mübarizəyə daha çox diqqət yetirilməsi onunla bağlı idi ki, məhərrəmlik şiə Azərbaycanı üçün ən önəmli gözə görünən dini mərasimlərindən sayılır, habelə bu mərasimdə keçirilən şəbih tamaşaları kütləvi yürüşlər, ehsanın kütləvi şəkildə olması bolşeviklər üçün potensial təhlükə sayılırdı. Bu səbəblərə görə də bolşeviklər tez bir zamanda məhərrəmliyə qarşı mübarizə aparmaq üçün müxtəlif üsullardan istifadə etməyə başladılar.

Bolşeviklər məhərrəmlik əleyhinə apardıqları təbliğatda hələ inqilabdan əvvəl Azərbaycan cəmiyyətinin qabaqcıl və mütərəqqi qüvvələrinin, ziyalılarının və qabaqcıl din xadimlərinin məhərrəmlik zamanı icra olunan zəncir vurmaq, baş yarmaq, müxtəlif cür özünə fiziki xəsarət yetirmə hallarına qarşı olmalarını qeyd edərək bütün bunlardan məhərrəmlik əleyhinə nəzərdə tutulmuş kampaniyalarında və təbliğatlarında istifadə edirdilər. Lakin, sonrakı illərdə məhərrəmlik əleyhinə hərəkat geniş kütləvi çıxışlar, kütləvi yığıncaqlar, bəyannamələr, dindarlarla kütləvi və fərdi iş, rövzəxanlığın ifşası və kütlələrdən təcrid edilib çıxarılması həm də islamın dini ehkamlarına, bütün ayinlərinə qarşı mübarizəyə çevrilmişdir. Beləliklə, məhərrəmlik zamanı müşahidə edilən mənfi hallar mübarizə bəhanəsi ilə həm də dinə zərbə vurmaq niyyəti daşıyırdı.

Eyni zamanda Qurban və Ramazan bayramlarına qarşı da mübarizə aparılır, dinlə heç bir əlaqəsi olmayan Novruz bayramı da dini bayram kimi qələmə verilərək sıxışdırılırdı.

Məscidlərin və ibadət yerlərinin inzibati yollarla bağlanılması zamanı müxtəlif hiylələrdən istifadə edilir, əhalinin məscidlərin bağlanılmasını tələb etməsi və ya məscidlərdəki tikinti materiallarından məktəb tikintisində istifadə olunması kimi cəfəng bəhanələr gətirilirdi. İnqilabdan əvvəl Azərbaycanda 3 mindən çox məscid olduğu halda, 1933-cü ildə bu rəqəm 17-yə qədər azalmışdır. Digər tərəfdən din xadimlərinə qarşı mübarizə aparılır, onlar repressiyalara məruz qalırdılar. Yeni din xadimlərinin yetişməsinin qarşısını almaq üçün bütün dini təhsil müəssisələri ləğv edilmişdir.

Dinə qarşı mübarizədə növbəti addım əlifbanın dəyişdirilməsindən ibarət olmuşdur. Bolşeviklər islama və ruhaniliyə ciddi zərbə vurmaq məqsədilə köhnə əlifbanı Azərbaycanda “mədəni inqilaba” mane olan əsas amillərdən biri

hesab edirdilər və bu məqsədlə də ərəb əlifbasını latın əlifbası ilə əvəz etmək qərara alındı. Ailə məişətdə dinin rolunu məhdudlaşdırmaq və tədricən aradan çıxarmaq üçün aparılan çoxsaylı kampaniyalar içərisində çadraya, papağa, milli musiqi alətlərinə qarşı görülən tədbirlər diqqəti cəlb edirdi.

II Dünya müharibəsi zamanı digər müsəlman respublikalarında olduğu kimi Azərbaycanda da dinlə bağlı vəziyyət kökündən dəyişdi. 1920-1940-cı illərdə kifayət qədər fəal olan bolşeviklərin din və dindarlara qarşı kampaniyaları dayandırıldı, bəzi məscidlər yenidən açıldı, Zaqafqaziya üçün rəsmi bir dini idarə quruldu. 1944-cü il mayın 25-28-də Zaqafqaziya müsəlmanlarının birinci qurultayı keçirildi və qurultay Axund Ağa Əlizadəni ZMRİ-nin sədri seçdi. Həmin ruhani idarəsinin səlahiyyətində müharibənin sonuna qədər cəmisi 22 məscid və bir “müqəddəs” ibadət yeri var idi, habelə 70-ə qədər ruhani nümayəndəsini rəsmi şəkildə qeydə almışdır.

II Dünya müharibəsindən sonra din və dövlət əlaqələri normallaşmış, din adamları və dindarlıq üzərinə hücumların ortadan qalxmış olmasına baxmayaraq bütün sovet elm adamları islam dininə qarşı mübarizənin əvvəlki kimi davam etməsinin zəruriliyi haqqında yekdil fikir ətrafında birləşmişdilər. 50-ci illərin əvvəllərində ölkədə mövcud olan “dini mülayimlik” yenidən dindarlara qarşı növbəti təzyiq mərhələsi ilə əvəz olundu. Bu əsasən 1954-cü ildə N.S. Xruşovun hakimiyyətə gəlişi ilə bağlı idi.

Qeyd etmək lazımdır ki, 1969-1982-cı illər ərzində Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri olmuş H.Ə.Əliyev zamanı milli mənəvi və dini dəyərlərə münasibət kökündən dəyişmişdir. H.Əliyev başa düşürdü ki, dövlət dinsiz ola bilər, lakin millət dinsiz olmaz. Bu sahədə əsrlərin sınağından çıxmış həqiqətə əsaslanaraq respublikamızda dini inancların nə qədər əhəmiyyətli olduğunu anlamış və xalqın öz dini inanclarını sərbəst şəkildə yaşatmasına qətiyyən mane olmamışdır.

Sovet hökuməti əsrlər boyunca islam mədəniyyəti və qurumları ilə əhatələnmiş, bu keyfiyyətləri ilə islam dünyasına örnək olmuş Azərbaycanın sosial və mədəni həyatına tamamən yad, başqa bir mədəniyyət və ideologiyanın məfhum və qurumları ilə yenidən inşa etmək kimi böyük bir layihəyə girişmişdi. Lakin, əsrlər boyunca dini adət və ənənələr xalqımızın ailə məişəti ilə üzvi surətdə qaynayıb qarışmışdır. Sovet dövründə İslamsızlaşdırma və ateizm təbliğatının qarşısında xalqın ailə məişəti dini ənənələri yaşada biləcək xüsusiyyətlərə malik idi. Qeyd etmək lazımdır ki, sovet elmi ateizim təbliğatına qarşı islamı adət ənənələrlə yanaşı ibtidai dinlərdən alınmış ayinlər, mərasimlər və digər inanclar da böyük rol oynamış, dinin yaşamasında və yetmiş illik ateizm təbliğatından sonra bu günümüzə gəlib çatmasında mühüm rol oynamışdır.

Sovet hakimiyyəti illərində dinin və dindarlığın formalarında sosioloji baxımdan da mühüm dəyişikliklər meydana gəlmişdir. Uzun illər ərzində dinin aradan qaldırılması, insanların dini şüur və təsəvvürlərdən uzaqlaşdırılması istiqamətində aparılan siyasətin nəticəsində dindarlığa da yeni bir çərçivə

qoymağa cəhd edilmiş, "müasir dindarlıq" anlayışı yaradılmışdır. Bu dindarlığın əsası da insanın ənənəvi dindən uzaqlaşdırılması prinsipinə hesablanmışdır. Buna görə dindarın dindən uzaqlaşması onun sosial həyatında meydana gələn dəyişikliklərin bir ifadəsidir.

Sovet dövrünün sosioloji çalışmalarında müsəlmanlar arasındakı dindarlıq səviyyəsi haqqında bəzi dəyərləndirmələr yerinə yetirilmişdir. Bu sahədə araşdırmalar obyektiv və subyektiv ünsürlərlə dəyərləndirilmişdir. Obyektiv ünsürlərin əvvəlində insanların dini təşkilatlarla əlaqəsi, dini mərasimlər və adətlərə qatılması gəlməkdədir. Subyektiv ünsürlər də daxili dini hisslər və düşüncələrdir. Həmin araşdırmalar haqqında öncədən deyək ki, bir çox obyektiv və subyektiv faktorlar sovet dövründə aparılan tədqiqatların doğruluğunu şübhə altında qoyur. Buna misal olaraq, şiələr arasında geniş yayılmış olan təqiyyəni göstərmək olar. Tədqiqatçılar bu amildən irəli gələrək qeyd edirlər ki, şiə ruhaniləri xüsusi təqiyyə praktikasından istifadə edərək təhlükə zamanı sözdə islamdan imtina edərək öz inanclarını gizlədirdilər. Nəticədə, Şimali Azərbaycanda bu gözyumma yəqin ki, sovet epoxası vaxtı mübariz ateizim aqressiyasının gedişində öz rolunu oynadı [159, 296].

Tədqiqatçılar Sovet insanını inanc baxımından ateist, tərəddüd edən və dindar olaraq xarakterizə etmişdirlər. Ateistləri mübariz və passiv ateistlərə, tərəddüd edənləri isə ateist meylli tərəddüd edənlər və dini meylli tərəddüd edənlər olaraq ayırmışlar.

1970-ci ildə Azərbaycan dindarları əsasən 3 qrupa bölünürdülər. Birinci qrup dinə, Allaha həqiqətən inananlar, dünya görüşlərinə dini ideologiya hakim olanlar idi. Bu dindarlar olduqca az saylı idilər. İkinci qrupa aid olanlar hələ də dini dünyagörüşünün təsirində olub, həyatlarında dinin mühüm rol oynamadığı insanlar idilər. Üçüncü qrupa aid olanlar isə tərəddüd edənlər idilər. Bu adamlar özlərini dindar qəbul etsələr də, onların dini inancları formal bir xarakter daşıyırdı. Həyatlarında dini görüşlərin təsiri çox az olub, dini mərasimləri mahiyyətinə varmadan icra edirdilər.

1982-ci ildə aparılan bir anket sorğusuna görə, respondentlərin 84.2%-i ateist, 7.9%-i tərəddüd edən və 7.9%-nin isə dindar olduğu aydın olmuşdur. Lakin, bir faktı da qeyd etmək lazımdır ki, insanların bir çoxu anket sorğuları zamanı həqiqi dini inanclarını gizlədirdilər, [160, 40] bu da anketlərin nə qədər düzgün informasiya verdiklərinə şübhə yaradır.

Eyni zamanda bu cür sorğuların keçirilməsinə şübhə ilə yanaşılmasının vacibliyini düşünürük. Çünki, onlar bu cür araşdırmaları ilə dinin artıq fərdin və cəmiyyətin həyatından çəkildiyini vurğulamışdılar, hansı ki, sovet dövründə bütün azərbaycanlılar dini dəfn mərasimləri keçirirdilər. Eyni şəkildə qadağan olmasına baxmayaraq hər kəs dini nikah kəsdirirdi. Sovetlər dini nikah yerinə "ZAKS", yəni rəsmi nikahı güclə yaymağa çalışınca xalq da rəsmi nikahın yanında gizli olaraq etmişlər. Eləcə də Sovetlər dövründə xalqın heç tərk etmədikləri dini tətbiqlərdən biri də sünnət mərasimi idi. SSRİ-də müsəlman

əsilli hər kəs istər rəhbər vəzifəsində işləyən məmurlar istər kommunist partiyasının üzvləri də daxil olmaqla sünnət olunmuşdur.

Dini dünyagörüşünün qorunub saxlanmasının səbəblərindən danışarkən, tədqiqatçılar ikinci dünya müharibəsi illərində dinə qarşı olan mülayim rəftarı, Buxara və Daşkənddə dini mədrəsələrin açılmasını və orada təhsil alan azərbaycanlı ilahiyyatçıların Vətənə qayıdıb dini təbliğatla məşğul olmalarını, azərbaycanlıların qarışıq karma evliliklərinə meyl göstərməmələrini qeyd edirlər. Adətən belə evliliklər azərbaycanlılar arasında nadir olur (10% civarında), həm də müsəlman kişinin digər dinə mənsub olan qadınla evlənməsi şəklində baş tuturdu. Digər tərəfdən dini nikaha əhəmiyyət verilməsində, evliliklərin böyük əksəriyyətində dini kəbinin kəsilməsində idi. Xalq arasında qeyri rəsmi şəkildə də olsa, sünnət adəti davam edirdi. Dini duyğu və mərasimlərin xalq arasında ən çox təzahür etdiyi dəfn və cənazə mərasimləri də dinin yaşadılmasında mühüm rol oynayırdı. Çox zaman dindar olmayanlar tərəfindən də riayət edilən dəfn mərasimi, onunla əlaqədar olan mərhumun üçü, yeddisi, qırxı, ili, qırxına qədər hər cümə axşamı yerinə yetirilən mərasimlər dini adətlərin yaşamasına kömək etmişdir.

SSRİ-də uzun illər ərzində dini bayramlar və mərasimlər, hətta dinlə heç bir əlaqəsi olmayan bəzi adətlərə də dini rəng verilərək qadağan olunmuşdur. Məsələn, başlıq pulu, dəfn yeməkləri və bu kimi mərasimlər “feodal adətlər” kimi qəbul edilərək qadağan edilmişdir. Lakin, bu zaman Sovet hakimiyyətinin “qalıqlar” adlandırdığı şeylər, əslində cəmiyyəti birləşdirən əlaqələrə çevrilmişdir. Eyni zamanda ənənəvi bayramlarla mübarizədə iki üsuldan istifadə edilmişdir: əvvəla, sovet bayramlarını daha yaxşı şəkildə qeyd etmək, ikincisi isə ənənəvi bayramların dini və milli əsaslarını yox edib, onlara sovetlərə xas olan əlamətlər əlavə etmək. Əsas sovet bayramları pasportalma, əsgərəgetmə, evlənmə, işləməyə başlamaq kimi günlərdən ibarət idi. Sovet rəhbərləri belə cəhdlər etməklə Azərbaycan cəmiyyətində yerləşmiş olan adət-ənənələri dəyişməyə, onları sovet adətləri ilə əvəz etməyə cəhd edirdilər.

Azərbaycan xalqında son dərəcə qüvvətli bir övliya kultunun mövcudluğu, əhali arasında müqəddəs ziyarətgahlara olan inam da sosioloqların diqqətini cəlb etmişdir.

Xalqımızın mədəni-mənəvi irsində uzun illərdən bəri formalaşmış böyüklərə, ağsaqqallara hörmət də dini dəyərlərin qorunub saxlanılmasına kömək etmişdir. Azərbaycanın bütün bölgələrində ənənəvi olaraq xalq içərisində deyilir ki, ailə başçısı kişi sayılır, ona görə də “birinci Allah, Peyğəmbər, sonra ata anadır” kişi qadından bir pillə yüksəkdir, kişi qazanır gətirir qadın isə ailə daxilində ailəni tənzimləyir. Eyni zamanda uşaqlara ad qoyulması, qonaqpərvərlik adəti və bu kimi adətlər insanlarda Allah inancının yaşamasının təzahürlərindən olmuşdur.

Qeyd etməliyik ki, kütləvi şəkildə aparılan ateistləşdirmə siyasəti kommunistlərin gözlədikləri nəticələri vermədi, Azərbaycan xalqı öz adət-ənənələrini, milli-mənəvi dəyərlərini qoruyub saxlaya bildi. Hələ sovet

hakimiyyəti illərində bu siyasətin iflasa uğradığı, insanların öz soykökülərinə bağlı olduğu kommunist liderləri tərəfindən dəfələrlə etiraf edilmişdir. Bunun bariz sübutu respublikamız müstəqillik qazandıqdan sonra insanların yenidən kütləvi şəkildə islama qayıdışı, ölkədə açılan çoxsaylı dini təhsil müəssisələri, bərpa olunan qədim məscidlər və müqəddəs ziyarətgahlardır. Müstəqil Azərbaycan Respublikasında insanların dini etiqadlarına dövlət tərəfindən təminat verilmiş, demokratik dövlət quruculuğunda dinin proqressiv rolu və dindarların fəal iştirakı da nəzərə alınmışdır.

### *Ədəbiyyat siyahısı (References)*

1. Kurat Akdes. Nimet. “Sovetlər birliyində türklər və islamiyyət.” Ankara: Belgelerle Türk tarihi dergisi, Eylül, 1971, sayı: 48, s. 10-29
2. Bennıgsen A., Lemercier-Quelquejay C. Step de Ezan sesleri. (Sovyet rejimi altındakı İslamın 400 yılı), çev.Nezih Uzel, İstanbul: Selçuk yay, 1981, 309 s.
3. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
4. Lemercier-Quelquejay C. «Azerbeycanda İslamiyyetin durumu». Çev, Nursel İçöz. Ankara: O.D.T.Ü. Asiya- Afrika araştırmaları qrubu yayın № 32, 1986, s. 1-26 (“Central Asia Survey” dergisinin, Cilt 3, Sayı 2 (1984), s. 29-55 baskısından çeviridir).
5. Lemercier-Quelquejay C. «Azerbeycanda İslamiyyetin durumu». Çev, Nursel İçöz. Ankara: O.D.T.Ü. Asiya- Afrika araştırmaları qrubu yayın № 32, 1986, s. 1-26 (“Central Asia Survey” dergisinin, Cilt 3, Sayı 2 (1984), s. 29-55 baskısından çeviridir).
6. Нариманов Н.Избранные произведения: В 3-х т.Т.2.Баку:Азернешр, 1989, 768 с.
7. İbişov F. Azərbaycan kəndində sosial- siyasi proseslər. Bakı: Mütərcim, 1996, s. 165
8. Nərimanov N.N. Məqalələr nitqlər. II clddə, I-ci cild. Bakı: Azərnəşr, 1971, 266 s.
9. Kurat Akdes. Nimet. “Sovetlər birliyində türklər və islamiyyət.” Ankara: Belgelerle Türk tarihi dergisi, Eylül, 1971, sayı: 48, s. 10-29
10. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
11. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
12. Nəcəfov B. Deportasiya. III clddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
13. Din əleyhinə mübarizə aparan propaqandistə kömək. (materiallar məcmuəsi) Bakı: Azərnəşr, 1939, 106 s.
14. Din əleyhinə mübarizə aparan propaqandistə kömək. (materiallar məcmuəsi) Bakı: Azərnəşr, 1939, 106 s.
15. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
16. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait və onun xüsusiyyətləri: tarix elm. nam. ... dis.avtoref. Bakı,2007, 20 s.
17. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
18. MAİ-nın rayon və şəhər sovetləri haqqında əsasnamə. Bakı: Azərnəşr, 1938, 12 s.
19. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.

20. Dubinski İ. Şura Azərbaycanında 10 ildə dinlə mübarizə // İnqilab və mədəniyyət jurnalı, 1930, № 4, s. 48-50
21. «İşçi allahsızlıar» dərnəkləri üçün dərs kitabı. Bakı: Azərnəşr, 1929, 228 s.
22. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
23. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
24. Bala Mirza. “Sovyetlerin Dini bir müracaatnamesi münasebetiyle” Ankara: Azerbaycan, 1958, sayı: 8-9. “Azerbaycan Sovet Kolonizasyon Siyaseti” 1977, sayı 223.
25. Bala Mirza. “Sovyetlerin Dini bir müracaatnamesi münasebetiyle” Ankara: Azerbaycan, 1958, sayı: 8-9. “Azerbaycan Sovet Kolonizasyon Siyaseti” 1977, sayı 223.
26. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
27. Quliyev M. Mədəni inqilab və islam. Bakı: Azərnəşr, 1928, 52 c.
28. İbişov F. Azərbaycan kəndində sosial- siyasi proseslər. Bakı: Mütərcim, 1996, s. 165
29. Dubinski İ. Şura Azərbaycanında 10 ildə dinlə mübarizə // İnqilab və mədəniyyət jurnalı, 1930, № 4, s. 48-50
30. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait və onun xüsusiyyətləri: tarix elm. nam. ... dis.avtoref. Bakı,2007, 20 s.
31. “Allahsız” jurnalı.1932 fevral №2, s.14-15-7-18, mart №3, s.26. aprel № 4, s 4-5, may №5, s.6 may-iyun № 6-7, s 2 8. iyul, №8, s.3 oktyabr № 9, s 6.
32. Nəcəfov B. Deportasiya. III cilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
33. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
34. Nəcəfov B. Deportasiya. III cilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
35. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait və onun xüsusiyyətləri: tarix elm. nam... dis.avtoref. Bakı,2007, 20 s.
36. Аббасов А.«Ислам в современном Азербайджане: Образы и реалии» // Азербайджан и Россия: обества и государства, /отв. ред. и сост./ Д.Е.Фурман, Москва: Летний сад, 2001, 491 с.280-309
37. Ислам, Религия, Общество, Государство./ Ответ ред. П.А. Грязневич, С.М. Прозоров. М.: Наука, 1984, 232 с.
38. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
39. Din və Proletariat. Bakı: Azərnəşr, 1928, 27 s.
40. «İşçi allahsızlıar » dərnəkləri üçün dərs kitabı. Bakı: Azərnəşr, 1929, 228 s.
41. Dubinski İ. Şura Azərbaycanında 10 ildə dinlə mübarizə // İnqilab və mədəniyyət jurnalı, 1930, № 4, s. 48-50
42. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
43. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.

44. "Allahsız" jurnalı. 1932 yanvar №1 s 3-12
45. Çadranın götürülməsi, din əleyhinə mübarizə və başqa işlər sahəsində AK(b) F-nin yaxın vəzifələri. AK(b) F.M.K. nəşriyatı. Bakı 1929, 15.s (03186)
46. AK (b) P IX qurultayı. «Kommunist» qəz., 1929, 10 mart, №57 (2563)
47. Dubinski İ. Din ilə mübarizə cəbhəsində // İnqilab və mədəniyyət jurnalı, 1930, № 1, s. 31-32
48. "Allahsız" jurnalı. 1932 yanvar №1 s 3-12
49. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait və onun xüsusiyyətləri: tarix elm. nam. ... dis.avtoref. Bakı,2007, 20 s.
50. Elmi-Ateizmin bəzi məsələlərinə dair mühazirə və müsahibələrin geniş planları. Bakı: 1962, 57 s.
51. Amosov N.K. Kommunist partiyasının və Sovet Dövlətinin dinə və kilsəyə münasibəti. Bakı 1955, 23 s.
52. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.
53. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.
54. Yunusov A. Azərbaycanda İslam. Bakı: Zaman, 2004, 364 s.
55. Səttarov M.M. İslam dini qalıqları Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1967, 180 s.
56. Səttarov M.M. İslam dini qalıqları Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1967, 180 s.
57. Məhərrəmliyin tarixi kökləri və mahiyyəti (mühazirəçilərə kömək) Bakı: 1968, s.
58. Səttarov M.M. İslam dini qalıqları Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1967, 180 s.
59. Səttarov M.M. İslam dini qalıqları Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1967, 180 s.
60. Məhərrəmliyin tarixi kökləri və mahiyyəti (mühazirəçilərə kömək) Bakı: 1968, s.
61. Səttarov M.M. İslam dini qalıqları Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1967, 180 s.
62. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
63. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
64. Rüstəmova-Tohidi S. Novruz bayramı tarix boyunca // Folklor və Etnoqrafiya jurnalı, 2007, № 1, s. 37-47
65. Rüstəmova-Tohidi S. Novruz bayramı tarix boyunca // Folklor və Etnoqrafiya jurnalı, 2007, № 1, s. 37-47
66. Rüstəmova-Tohidi S. Novruz bayramı tarix boyunca // Folklor və Etnoqrafiya jurnalı, 2007, № 1, s. 37-47
67. Tağıyev Ə. Ailədə din əleyhinə tərbiyə. Bakı: «XMK» (Xalq Maarif Komissarlığı), 1941, 22 s.
68. Nəcəfov B. Deportasiya. III clilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
69. Həsənov Ə. Azərbaycan maarifçiləri tərəfindən islamın tənqidi. (XIX əsrin ikinci yarsı XX əsrin əvvəlləri). Bakı: Yazıçı, 1983, 224 s.
70. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
71. Nəcəfov B. Deportasiya. III cilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
72. Nəcəfov B. Deportasiya. III cilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
73. Abdullayev. H. İslamın məhərrəmlik mərasimi. Bakı: Azərnəşr, 1967, 154 s.
74. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
75. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması.Bakı:Azərbaycan SSR EA nəşriyyatı 1964,190 s.

76. Abdullayev. H. İslamın məhərrəmlik mərasimi. Bakı: Azərnəşr, 1967, 154 s.
77. Abdullayev. H. İslamın məhərrəmlik mərasimi. Bakı: Azərnəşr, 1967, 154 s.
78. Nəcəfov B. Deportasiya. III cilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
79. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.
80. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.
81. XulufluV. Panislamizim İmperializim və Ruhaniyyət.Bakı: Azərnəşr, 1929,40s.
82. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
83. Abdullayev. H. İslamın məhərrəmlik mərasimi. Bakı: Azərnəşr, 1967, 154 s.
84. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması.Bakı:Azərbaycan SSR EA nəşriyyatı 1964, 190s.
85. Xuluflu V. Məhərrəmlik münasibətilə. Bakı: Azərnəşr, 1932, 31 s.
86. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
87. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
88. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
89. Nəcəfov B. Deportasiya. III cilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
90. Məmmədov A. Oruc, Novruz sinfi düşmənin əlində silah və ruhanilərin zənginləşməsi üçün bir mənbədir // Allahsız jurnalı, 1931, № 3, s. 13
91. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
92. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
93. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
94. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
95. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
96. Məhərrəmliyin tarixi kökləri və mahiyyəti (mühazirəçilərə kömək) Bakı: 1968, s.
97. Hüseynov T. Orucluğun əmələ gəlməsi. Bakı: Azərnəşr, 1930, 20 s.
98. Hüseynov T. Orucluğun əmələ gəlməsi. Bakı: Azərnəşr, 1930, 20 s.
99. Orucluq ilə mübarizə tezisləri. Tiflis: «Yeni kənd», «Dan ulduzu», 1930,10s.
100. Quluzadə M. Dinimiz dünən və bu gün (1920-1990) Bakı: “Azərbaycan ensiklopediyası” 1996, 152 s.
101. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.

102. İbişov F. Azərbaycan kəndində sosial- siyasi proseslər. Bakı: Mütərcim, 1996, s. 165
103. Ordubadi. M.S. Qurban kəsmək haqqında. Bakı: Azərnəşr, 1930, 30 s.
104. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
105. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
106. Rüstəmova-Tohidi S. Novruz bayramı tarix boyunca // Folklor və Etnoqrafiya jurnalı, 2007, № 1, s. 37-47
107. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait və onun xüsusiyyətləri: tarix elm. nam. ... dis.avtoref. Bakı, 2007, 20 s.
108. Yampolski Z.İ. Azərbaycanda qədim dinlər. Bakı: «Qızıl şərq»rq 1958, 25 s.
109. Quliyev M. Mədəni inqilab və islam. Bakı: Azərnəşr, 1928, 52 c.
110. Səttarov M.M. sosializm quruculuğu illərində Azərbaycan xalqında ateizm dünyagörüşünün formalaşması. Bakı: Azərbaycan SSR EA nəşriyyatı 1964, 190 s.
111. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.
112. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
113. Antidin Propaqanda haqqında məcmuə. Bakı: Azərnəşr. 1938, 79 s.
114. Din və Kilsə haqqında sənədlər məcmuəsi. Bakı Azərnəşr, 1966, 128 s.
115. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР,Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
116. İbişov F. Azərbaycan kəndində sosial- siyasi proseslər. Bakı: Mütərcim, 1996, s. 165
117. Bala Mirza. “Sovyetlerin Dini bir müracaatnamesi münasebetiyle” Ankara: Azerbaycan, 1958, sayı: 8-9. “Azerbaycan Sovet Kolonizasyon Siyaseti” 1977, sayı 223.
118. AK (b) P IX qurultayı. «Kommunist» qəz., 1929, 10 mart, №57 (2563)
119. İbişov F. Azərbaycan kəndində sosial- siyasi proseslər. Bakı: Mütərcim, 1996, s. 165
120. Mövsümova L. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. Bakı: Ulu, 2002, 299 s.
121. Çadranın götürülməsi, din əleyhinə mübarizə və başqa işlər sahəsində AK(b) F-nin yaxın vəzifələri. AK(b) F.M.K. nəşriyyatı. Bakı 1929, 15.s (03186)
122. Çadranın götürülməsi, din əleyhinə mübarizə və başqa işlər sahəsində AK(b) F-nin yaxın vəzifələri. AK(b) F.M.K. nəşriyyatı. Bakı 1929, 15.s (03186)
123. İbişov F. Azərbaycan kəndində sosial- siyasi proseslər. Bakı: Mütərcim, 1996, s. 165
124. Quliyev M. Mədəni inqilab və islam. Bakı: Azərnəşr, 1928, 52 c.
125. İbişov F. Azərbaycan kəndində sosial- siyasi proseslər. Bakı: Mütərcim, 1996, s. 165
126. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
127. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
128. Bala Mirza. “Sovyetlerin Dini bir müracaatnamesi münasebetiyle” Ankara: Azerbaycan, 1958, sayı: 8-9. “Azerbaycan Sovet Kolonizasyon Siyaseti” 1977, sayı 223.

129. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
130. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
131. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
132. Bennıgsen A., Lemercier-Quelquejay C. Step de Ezan sesleri. (Sovyet rejimi altındakı İslamın 400 yılı), çev.Nezih Uzel, İstanbul: Selçuk yay, 1981, 309 s.
133. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.
134. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı : Azərnəşr, 1991, 200 s.
135. Yunusov A. Azərbaycanda İslam. Bakı: Zaman, 2004, 364 s.
136. Bennıgsen A., Lemercier-Quelquejay C. Step de Ezan sesleri. (Sovyet rejimi altındakı İslamın 400 yılı), çev.Nezih Uzel, İstanbul: Selçuk yay, 1981, 309 s.
137. Геюшев А.Р. Взаимоотношения Советов с Исламом /Азербайджан, 20-30-е годы XX века/ "Сборник текстов докладов Международной Конференции «Исламское образование в Советском Союзе и государствах СНГ», Бохум (Германия) 13-16 мая, 2004 года" с 27-37.
138. Mehdixan V. Məktəbə qədər yaşlılar arasında din əleyhinə tərbiyə // Kommunist tərbiyəsi uğrunda, (ictimai pedaqoji məcmuə) 1930, № 1-2,s. 21-23
139. Nəcəfov B. Deportasiya. III clddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
140. Nəcəfov B. Deportasiya. III cilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
141. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
142. Mehdixan V. Məktəbə qədər yaşlılar arasında din əleyhinə tərbiyə // Kommunist tərbiyəsi uğrunda, (ictimai pedaqoji məcmuə) 1930, № 1-2,s. 21-23
143. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
144. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
145. Quliyev M. Mədəni inqilab və islam. Bakı: Azərnəşr, 1928, 52 c.
146. Kəndlilər və din. Bakı: Azərnəşr, 1928, 35 s.
147. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı : Azərnəşr, 1991, 200 s.
148. Quliyev M. Mədəni inqilab və islam. Bakı: Azərnəşr, 1928, 52 c.
149. Abdullayev. H. İslamın məhərrəmlik mərasimi. Bakı: Azərnəşr, 1967, 154 s.
150. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, сследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
151. Гаджибейли Дж. Антиисламистская пропаганда и ее методы в Азербайджане. Мюнхен: / Институт по Изучению СССР, Исследования и материалы /серия, 1-я, выпуск 50, 1959, 87 с.
152. Quliyev M. Mədəni inqilab və islam. Bakı: Azərnəşr, 1928, 52 c.

153. Bennıgsen A., Lemercier-Quelquejay C. Step de Ezan sesleri. (Sovyet rejimi altındakı İslamın 400 yılı), çev.Nezih Uzel, İstanbul: Selçuk yay, 1981, 309 s.
154. «Kommunist» qəz., 1929, 4 yanvar, № 3 (2509)
155. Bennıgsen A., Lemercier-Quelquejay C. Step de Ezan sesleri. (Sovyet rejimi altındakı İslamın 400 yılı), çev.Nezih Uzel, İstanbul: Selçuk yay, 1981, 309 s.
156. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait və onun xüsusiyyətləri: tarix elm. nam. ... dis.avtoref. Bakı, 2007, 20 s.
157. Nəcəfov B. Deportasiya. III cilddə, III c., Бакы: Çaşıoğlu, 2006, 317 s.
158. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991, 200 s.
159. Аббасов А.«Ислам в современном Азербайджане: Образы и реалии» // Азербайджан и Россия: обества и государства, /отв. ред. и сост./ Д.Е.Фурман, Москва: Летний сад, 2001, 491 с.280-309
160. Əhədov A. Azərbaycanda islamın modernləşdirilməsi. Bakı: Azərnəşr, 1995, 156 s.

## Annotation

**Dr.Taleh Hajiyev**

### Features of anti-religious policy in Soviet Azerbaijan (1920-1940)

In the Republic of Azerbaijan, which gained independence after the collapse of the USSR, the socio-political events of the last 70 years were being assessed and viewed from a completely new point of view. One of the main tasks of researchers is to consider the damage done to the national and religious values of the people during the years of Soviet power, to bring them up for public discussion, to give a scientific assessment of the ongoing processes. In general, the research topic is of particular importance from both scientific and practical points of view.

Unlike other syncretic fields that study the religious life of society or the role of religion in public life, this article is based on historical documents and facts about what parameters the Bolsheviks and atheists knew about the attributes of religion and how they fought against them. In the article the forms of the struggle of the Bolsheviks with religious holidays and rituals in Azerbaijan, the peculiarities of anti-religious policy from the first years of Soviet power, are described and explained by the facts. In addition to studying religious indicators and parameters of that time, this article also shows methods and techniques for dealing with them.

**Key words:** Soviet Azerbaijan, Soviet power, religious holidays and rituals, forms of struggle, Muharram, the month of Ramadan, Eid al-Adha, mosques, religious schools, theologians.

## Аннотация

**Др. Талех Гаджиев**

### Особенности антирелигиозной политики в Советском Азербайджане (1920-1940 гг.)

В Азербайджанской Республике, получившей независимость после распада СССР начали объективно оценивать социально-политические события последних 70 лет, и эти события стали рассматриваться с совершенно новой точки зрения. Одна из основных задач исследователей - рассматривать ущерб, нанесенный национальным и религиозным ценностям народа за годы советской власти, вынести их на общественное обсуждение, дать научную оценку происходящим процессам. В общем тема исследования имеет особое значение как с научной, так и с практической точки зрения.

В отличие от других синкретических областей, изучающих религиозную жизнь общества или роль религии в общественной жизни, эта статья основана на исторических документах и фактах о том, какие параметры знали большевики и атеисты об атрибутах религии и как они

боролись с ними. Здесь, прежде всего, описаны и объяснены фактами формы борьбы большевиков с религиозными праздниками и обрядами в Азербайджане, особенности антирелигиозной политики с первых лет советской власти. Помимо изучения религиозных показателей и параметров того времени, в этой статье также показаны методы и приемы борьбы с ними.

**Ключевые слова:** Советский Азербайджан, Советская власть, религиозные праздники и обряды, формы борьбы, Мухаррам, месяц Рамадан, Курбан-байрам, мечети, религиозные школы, богословы.